Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 233 (7960) ÇƏRŞƏNBƏ, 17 oktyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



# Davamlı inkişaf və möhkəm sabitlik

## Bunlar Azərbaycanın əsas reallıqlarıdır

**Şəffaf idarəçiliyi hökumətin mühüm vəzifələrindən biri kimi müəyyənləşdirən Prezident İlham Əliyevin idarəçilik konsepsiyasının diqqəti çəkən əsas tərəflərindən biri görülmüş işlər, o cümlədən qarşıda dayanan vəzifələrlə bağlı ictimaiyyətin məlumatlandırılmasıdır. Bu baxımdan hər rübün və ilin yekunları ilə bağlı Nazirlər Kabinetinin iclaslarının keçirilməsi həm də iqtidar komandasının xalq qarşısında hesabatıdır.**

### Dövlət başçısı ictimaiyyətin məlumatlandırılmasını zəruri hesab edir

Bu cür hesabatlar görülmüş işlərin dəyərləndirilməsi, insanlara düzgün və obyektiv çatdırılması, həmçinin yol verilmiş nöqsan və problemlərin aradan qaldırılması baxımından səmərəli vasitədir. Bu günlərdə prezidentlik fəaliyyətinin 15 ili tamam olan cənab İlham Əliyev hər bir məsələdə ictimaiyyətin məlumatlandırılmasını zəruri sayır. Təsadüfi deyil ki, bu dövrdə Nazirlər Kabinetinin iclaslarının, o cümlədən iqtisadiyyatın, kənd təsərrüfatının ayrı-ayrı sahələri ilə bağlı müşavirələrin keçirilməsi ənənə halını alıb.

Belə iclaslar Azərbaycan iqtidarının fəaliyyətindəki şəffaflığın əyani sübutudur. Eyni zamanda bu cür iclaslar təsdiqləyir ki, vətəndaşların iqtidara olan etimadını, həmçinin uğur və nailiyyətləri şərtləndirən mühüm amillərdən biri sosial məsuliyyət prinsipidir. Ən əsası isə odur ki, Prezident İlham Əliyevin sədrliyi ilə daimi olaraq Nazirlər Kabinetinin iclaslarının keçirilməsi, Azərbaycan iqtisadiyyatında baş verən yeniliklər, nəzərdə tutulan işlər, ölkənin xarici siyasəti, ordu quruculuğu və digər məsələlər barədə geniş hesabatların verilməsi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır.

### Bu il dinamik inkişaf təmin edilib

2018-ci il hələ başa çatmasa da, artıq indidən bu ilin Azərbaycan üçün növbəti uğurlu dövr kimi tarixə düşəcəyini söyləmək olar. İlk növbədə bu il respublikamızın iqtisadi inkişafı ilə əlamətdardır. Çünki bir neçə il əvvəl beynəlxalq iqtisadi böhranın nəticəsində yaranmış çətinliklər artıq geridə qalıb. 2016-cı ildən başlanan yeni iqtisadi islahatlar ölkədə xüsusən qeyri-neft sektorunun inkişafını təmin edib. İqtisadiyyatdakı inkişaf 2018-ci ildə də artan templə davam edib. Bu baxımdan 2018-ci ilin ötən dövrü Azərbaycanda iqtisadi inkişafın davamı, islahatların uğurla həyata keçirilməsi ilə yadda qalacaq. Bu dövrdə makroiqtisadi sabitlik bir qədər də möhkəmlənib, xüsusən qeyri-neft sektorunun artımı təmin edilib. Ona görə ötən 9 ay inkişaf templərinin sürətləndirilməsi istiqamətində növbəti uğurlu mərhələ kimi də səciyyələndirilə bilər. Təsadüfi deyil ki, oktyabrın 9-da Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı çıxışına 2018-ci ilin ölkəmiz üçün uğurlu il olduğunu qeyd etməklə başladı: *"2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlindən qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla və vaxtında icra edilir. Azərbaycan 2018-ci ildə də öz dinamik inkişafını təmin etmişdir və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır".*

İclasda səslənən rəqəmlər də Azərbaycan iqtisadiyyatındakı artım templərinin davamlı olmasından xəbər verir. Belə ki, bu ilin doqquz ayında ümumi daxili məhsul 0,8 faiz, qeyri-neft sektoru isə 1 faiz artıb. Sənaye istehsalında artım 2 faiz, qeyri-neft sənayesində isə 10,8 faiz təşkil edib. Cəmi iki il əvvəl yaranmış iqtisadi və maliyyə çətinliklərindən ötən qısa müddətdə iqtisadiyyatda artımın müşahidə olunması özlüyündə çox böyük iqtisadi hadisədir. Bu, son illərdə ölkədə düzgün istiqamətdə aparılan iqtisadi islahatların, o cümlədən sənayeləşmə siyasətinin məntiqi nəticəsidir. Bu göstəricilər həm də onu deməyə əsas verir ki, qeyri-neft sektorunun inkişafı istiqamətində qarşıya qoyulan vəzifələr yerinə yetirilir.

Kənd təsərrüfatında da vəziyyət ürəkaçandır. Belə ki, doqquz ayda bu sahədə 4,3 faiz artım baş verib. İnflyasiya cəmi 2,6 faiz, əhalinin gəlirləri isə 9,5 faiz təşkil edib.

*Ardı 3-cü səh.*

## Milli Məclisin iclasında

# Uşaqların zərərli informasiyadan qorunması qanunla tənzimlənəcək

**Oktyabrın 16-da Milli Məclisin növbəti plenar iclası keçirildi. Spiker Oqtay Əsədov iclası açıq elan etdikdən sonra gündəlikdəki məsələlərin müzakirəsi davam etdirildi.**



Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" (ikinci oxunuş) və "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi" barədə (ikinci oxunuş) qanun layihələri barədə məlumat verdi. Qanun layihələrində təklif olunan dəyişikliklərdə məqsəd Mülki Məcəllə ilə "Banklar haqqında" qanun arasında olan ziddiyyətlərin aradan qaldırılmasıdır. Qanun layihələri qəbul edildi.

Sonra "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" (ikinci oxunuş) və "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" (ikinci oxunuş) qanun layihələri müzakirəyə təqdim edildi. Bildirildi ki, dəyişikliklər daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının qeydiyyatının və dövriyyəsinin elektron qaydada təşkili ilə bağlı müddəaların hüquqi əsasının formalaşdırılması, həmçinin ipoteka kağızının tərtib olunması, ipoteka qoyan tərəfindən imzalanması, onun notariat qaydasında təsdiqlənməsi və digər prosedurların elektron qaydada həyata keçirilməsini nəzərdə tutur. Məqsəd vətəndaş-məmur münasibətlərini minimuma endirməkdir. Qanun layihələri qəbul edildi.

Qeyd edək ki, Milli Məclisin iclasında deputatlar bəzi şəhid ailələrinin birdəfəlik müavinət ala bilmədiklərini diqqətə çatdırdılar. Dövlət başçısının bununla bağlı müvafiq sərəncamını yüksək qiymətləndirən deputatlar bəzi şəhid ailələrinin müavinəti almalarında problemlərin yarandığını qeyd etdilər.

Məsələyə münasibət bildirən Milli Məclisin Sədri Oqtay Əsədov bildirdi ki, parlament şəhid ailələri ilə bağlı nə mümkündürsə etdi, iclaslar keçirdi, müvafiq müraciətlər oldu. Spiker Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və "Azərsığorta"nın əməkdaşlarının parlamentə dəvət edilməsini və bu məsələnin müzakirə olunmasını təklif etdi.

Komitə sədri Ziyad Səmədzadə "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" qanunun layihəsi haqqında (ikinci oxunuş) məlumat verdi. Dəyişikliklər lotereyaların, o cümlədən elektron lotereyaların təşkili və keçirilməsinə nəzarət mexanizmlərinin, bu sahədə hüquqi bazanın daha da təkmilləşdirilməsini, lotereyalar təşkilatçısının təsisçisinə dair tələblərin, lotereyalarda iştirak edən şəxslərin yaş məhdudiyyətinə dair müddəaların qanuna daxil edilməsini, elektron lotereyaların dövlət qeydiyyatına alınmış elektron informasiya sistemi vasitəsilə həyata keçirilməsini nəzərdə tutur. Qanun layihəsi təsdiqləndi.

"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" (ikinci oxunuş) qanun layihəsi barədə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verdi. Dəyişiklik "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2018-ci il 1 fevral tarixli qanunun icrası ilə bağlıdır. Qanun layihəsi qəbul edildi.

İclasda daha sonra "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" (ikinci oxunuş) və "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" (ikinci oxunuş) qanun layihələri müzakirəyə çıxarıldı. Hər iki layihə barədə komitə sədri Əli Hüseynli danışdı. Dəyişikliklər yerin təkinin qorunması və istifadəsi qaydalarının pozulmasına görə cinayət və inzibati məsuliyyətin sərtləşdirilməsini nəzərdə tutur. Layihələr təsdiq olundu.

*Ardı 3-cü səh.*

# Regionlar yeni sürət götürür



## Həm qeyri-neft sektorunun inkişafında, həm də güzəranın yaxşılaşmasında

**Bu gün Azərbaycanda qeyri-neft sektorunun əsas ünvanının regionlar olması danılmaz reallıqdır. Özü də bu, təkcə onunla bağlı deyil ki, Bakı və Abşeron yarımadası ölkənin karbohidrogen ehtiyatları ilə zəngin ərazisi olduğu üçün burada yalnız neft sektoru inkişaf edir.**



Düzdür, bunu tam inkar etmək mümkün olmasa da, paytaxtda qeyri-neft sektorunun müxtəlif sahələrinin formalaşmasını danmaq da həqiqətə uyğun deyil. Amma bütün hallarda indi Azərbaycanın qeyri-neft sektorunun əsas ağırlığı regionların çiyninə düşür ki, bu da bütün mənalarda bölgələrimizin yalnız xeyrinə işləyir.

Prezident İlham Əliyevin birbaşa təşəbbüsü və rəhbərliyi ilə 15 il davam edən bu siyasət xüsusən SSRİ dağılandan sonra məlum səbəblər üzündən bölgələrimizin sosial-iqtisadi inkişaf cəhətdən paytaxtdan geridə qalmasının qarşısını almağa, yerli xammal potensialını hərəkətə gətirməyə, ən əsası isə regionlarda yaşayan əhalinin məşğulluq problemini həll etməyə imkan vermişdir. Qəbul edilmiş üç dövlət proqramında qarşıya qoyulan vəzifələrin icrası nəticəsində bugünkü regionlarımız 15 il əvvəlki, əgər belə demək mümkünsə, əyalətlərimizdən xeyli fərqlənir. İndi bölgələrdəki nə şəhər və qəsəbələrimiz həminkidir, nə də kəndlərimiz. Heç regionlarda yaşayan əvvəlki əhalimizdən də əsər-əlamət qalmayıb. İndi onların abad yolları, qazı, işığı kəsilməyən isti evləri, əkin-biçinli, mal-qaralı təsərrüfatları var.

Amma bunlar hələ kifayət deyil. Dövlət başçısının qeyri-neft sektorunun inkişafı ilə bağlı müəyyən etdiyi vəzifələr ilk növbədə regionların üzərinə əlavə öhdəliklər qoyur. Prezident İlham Əliyev Nazirlər Kabinetinin cari ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu məsələ ilə bağlı demişdir: "Qeyri-neft sektorunun inkişafı üçün çox böyük işlər görülür, addımlar atılır. Xüsusi ilə son dövrdə qəbul edilmiş qərarlar çox böyük canlanmaya gətirib çıxarıb. Təkcə onu demək kifayətdir ki, investisiya təşviqi sisteminin tətbiqindən sonra 300-dən çox investisiya təşviqi sənədi verilmişdir. Bu layihənin icrası nəticəsində 20 min iş yeri yaradılıb. İnvestisiya təşviqi mexanizminin işə düşməsindən sonra icra edilən və nəzərdə tutulan layihələrin ümumi investisiya həcmi 2,7 milyard manatdır. Əgər biz bu sistemi tətbiq etməsəydik, heç kim gəlib bu vəsaiti Azərbaycana qoymazdı. Baxın, bu ciddi islahatın aparılması ilə təxminən 3 milyard manat investisiya cəlb etmişik, 20 min insan üçün isə iş yeri yaratmışıq".

Deyilənlərə onu da əlavə edək ki, qeyri-neft sektorunun birbaşa bağlı olduğu regionların inkişafı üçün üst-üstə 67 milyard manatdan çox vəsait xərclənib, son 15 ildə açılan 2 milyondan çox iş yerinin 75 faizi bölgələrin payına düşüb, aqrar sektor sahəsi üzrə 4 min kilometrdən çox suvarma kanalları, 2660 kilometrdən çox kollektor-drenaj şəbəkəsi bərpa olunub və ya yenidən qurulub, 390 min hektar torpağın su təminatı və 261 min hektar sahənin meliorativ vəziyyəti yaxşılaşdırılıb, 145 min hektar yeni suvarılan sahələr dövriyyəyə qatılıb, 43 mindən çox müxtəlif təyinatlı texnika alınıb və s.

*Ardı 3-cü səh.*

# "Şimal-Cənub nəqliyyat dəhlizi" Azərbaycana böyük iqtisadi və siyasi dividendlər gətirəcək

## Bu dəhlizlə ölkəmizin ərazisindən daşınan yüklərin 100 dəfə artması uğurların başlanğıcıdır

**Azərbaycan təkcə "Şərq-Qərb nəqliyyat dəhlizi"nin deyil, "Şimal-Cənub nəqliyyat dəhlizi"nin də fəal iştirakçısıdır. Odur ki, bu dəhliz vasitəsilə göndərilən yüklərin həcmi getdikcə artır.**

İlin əvvəlindən "Şimal-Cənub nəqliyyat dəhlizi" ilə Azərbaycan ərazisindən daşınan yüklərin həcmi 100 dəfədən çox artıb. Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu nailiyyətlərin başlanğıc olduğu qeyd edilmişdir.

Azərbaycan "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi" infrastrukturunu davamlı surətdə təkmilləşdirir. Bunu son bir neçə il ərzində dəhlizin reallaşması istiqamətində görülən mühüm işlər təsdiqləyir. Məsələn, Astara-Rəşt dəmir yolunun tikintisinin qısa müddətdə başa çatdırılması təkcə İran və Azərbaycan üçün deyil, bütün Avrasiya regionu üçün yeni imkanlar açacaq. Bu dəmir yolu istifadəyə veriləndən sonra "Şimal-Cənub nəqliyyat dəhlizi" vahid şəbəkə sistemində fəaliyyət göstərəcək. Nəticədə Avrasiya məkanında ölkələrin bir-biri ilə qarşılıqlı əlaqələri genişlənəcək.

*Ardı 3-cü səh.*

# Paşinyan son savaş üçün istefa verdi

## Ermənistanda dekabrda keçiriləcək növbədənkənar parlament seçkiləri ölkədə yeni inqilabi ab-hava yaradır




Dünən Ermənistanın baş naziri Nikol Paşinyan bəyanatla çıxış edərək rəsmən istefa verdiyini açıqladı. Baş verən bu proseslər ölkənin siyasi həyatında yeni bir dönəmin başlandığını göstərir. Beləliklə, bu ilin dekabrında Ermənistanda növbədənkənar parlament seçkiləri keçiriləcək. Parlamentdə təmsil edilən siyasi qüvvələr arasında əldə edilən razılaşmaya əsasən, Nikol Paşinyan həmin seçkilərdən sonra hökumət başçısı postuna yeganə namizəd olacaq. Digər tərəfdən parlament seçkilərindən sonra Paşinyanın qanunverici orqanı nəzarət altına alması da gözlənilir.

### "Seçkilər dövlətçiliyin ciddi məğlubiyyəti olacaq"

Ermənistanın sabiq prezidenti Robert Koçaryan isə qeyd edib ki, dekabrda keçiriləcək növbədənkənar parlament seçkiləri xalqın yox, Nikol Paşinyanın şəxsi qələbəsi olacaq. Çünki bu seçkilər dövlətçiliyin məğlubiyyəti ilə nəticələnəcək: "Seçkilər bizim dövlətçiliyimizin ciddi məğlubiyyəti olacaq.

*Ardı 6-cı səh.*

## Qax rayonunun Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Dörd min nəfər əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 15,1 milyon (on beş milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2018-ci il*

## O.S.Qurbanovun Azərbaycan Respublikasının Mərakeş Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Oktay Sudef oğlu Qurbanov Azərbaycan Respublikasının Mərakeş Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2018-ci il*

## Q.M.Məmmədovun Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Qaya Məmməd oğlu Məmmədov Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2018-ci il*

## E.X.Vəliyevin Ukraynanın Çerkassı, Kirovoqrad, Poltava və Vinnitsa vilayətlərini əhatə etməklə Poltava şəhərində Azərbaycan Respublikasının fəxri konsulu təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Elşən Xanlar oğlu Vəliyev Ukraynanın Çerkassı, Kirovoqrad, Poltava və Vinnitsa vilayətlərini əhatə etməklə Poltava şəhərində Azərbaycan Respublikasının fəxri konsulu təyin edilsin.
2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2018-ci il*

## T.İ.Əliyevin Azərbaycan Respublikasının Mərakeş Krallığında, Qambiya Respublikasında, Mali Respublikasında, Mavritaniya İslam Respublikasında, Portuqaliya Respublikasında, Seneqal Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ISESCO) yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Tarik İsmayıl oğlu Əliyev Azərbaycan Respublikasının Mərakeş Krallığında, Qambiya Respublikasında, Mali Respublikasında, Mavritaniya İslam Respublikasında, Portuqaliya Respublikasında, Seneqal Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ISESCO) yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2018-ci il*

## F.N.İsmayılovun Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fəxrəddin Nəcəf oğlu İsmayılov Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2018-ci il*

## E.Y.Eyyubovun Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılması haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Emin Yaqub oğlu Eyyubov Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2018-ci il*

## Sumqayıt Dövlət Dram Teatrının əməkdaşlarına "Əməkdar artist" fəxri adının verilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda teatr sənətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar artist" fəxri adı verilsin:

Hüseynov Mövsüm Turbəndə oğlu
Nuriyeva Sədaqət Məmmədağa qızı
Süleymanova Xatirə Bəylər qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2018-ci il*

## Sumqayıt Dövlət Dram Teatrı əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda teatr sənətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Cəfərova Rüxsarə Əliağa qızı
Xanlarov Habil Tehran oğlu
Qurbanova Vəfa Əli qızı
Məmmədov Vidadi Mansur oğlu
Məmmədova Mayə Əliağa qızı
Mirzəyev Akif Əziz oğlu
Müzəffərov Arif Valeh oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2018-ci il*

## Mingəçevir Dövlət Dram Teatrı əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda teatr sənətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Əliyeva Afət Məmməd qızı
Həşimov Rafael Zeynal oğlu
İbrahimli Qabil Mahmud oğlu
İmamverdiyev Yusif İmamverdi oğlu
Quliyev Aydın Baloğlan oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2018-ci il*

## Mingəçevir Dövlət Dram Teatrı əməkdaşlarının "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda teatr sənətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsinlər:

Abbasov Zülfüqar Qulu oğlu
Mirabov Akif Əhməd oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2018-ci il*

## Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda iqtisad elminin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Hüseynov Tofiq Həsən oğlu
Muradov Allahyar Niyaz oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2018-ci il*

## X.N.Gəncəliyə "Əməkdar artist" fəxri adının verilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda teatr sənətinin inkişafında xidmətlərinə görə Xəzər Novruz oğlu Gəncəliyə "Əməkdar artist" fəxri adı verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2018-ci il*

## Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun əməkdaşlarının "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda iqtisad elminin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsinlər:

Əliyev Tərbiz Nəsib oğlu
İmanov Nazim Müzəffər oğlu
Musayev Akif Fərhad oğlu
Sultanova Rəna Polad qızı
Yüzbaşıyeva Gülşən Zahid qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2018-ci il*

# Türkiyənin "Haber Global" kanalında Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı nailiyyətlərə dair süjet yayımlanıb




Türkiyənin "Haber Global" telekanalında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkə rəhbəri vəzifəsində 15 illik fəaliyyəti dövründə əldə olunan nailiyyətlərə həsr edilən geniş süjet yayımlanıb.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev ilə 15 il" adlı yeddi dəqiqəlik süjetdə dövlət başçısının hakimiyyətdə olduğu dövrdə mühüm uğurların qazanıldığı qeyd edilib. Həmçinin İlham Əliyevin 2003-cü ildə səsvermə günü verdiyi müsahibədə dediyi "Bu seçkilərin Azərbaycanın inkişafı, Azərbaycan xalqının rifahının artması və Azərbaycan dövlətinin güclənməsi yolunda mühüm addım olacağına inanıram" sözləri diqqətə çatdırılıb.

Süjetdə müstəqilliyin əvvəllərində Azərbaycanın bütün sahələrdə dərin böhran içində olduğu qeyd edilib, yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkənin dinamik inkişaf yoluna qədəm qoyduğu diqqətə çatdırılıb. Ümummilli lider Heydər Əliyevin siyasətinin onun layiqli davamçısı İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində on illər ərzində əldə edilə biləcək nailiyyətlərin qısa müddətdə qazanıldığı xüsusi vurğulanıb.

Bildirilib ki, postsovet ölkələri arasında bazar iqtisadiyyatına sürətlə keçid edən ilk respublika olan Azərbaycan regionun güclü ölkəsinə, dünyada söz və nüfuz sahibinə çevrilib.

Süjetdə Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycanın əldə etdiyi iqtisadi nailiyyətlərdən geniş söhbət açılıb. Qeyd edilib ki, son 15 ildə Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artıb. Ölkənin valyuta ehtiyatları 2003-cü ildəki 1,8 milyard dollardan 46 milyard dollara qədər artıb. Bu illərdə ölkə iqtisadiyyatına 250 milyard dollardan çox investisiya yatırılıb.

Diqqətə çatdırılıb ki, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynaması Azərbaycanı enerji sahəsində önəmli ölkəyə çevirib. Prezident İlham Əliyevin liderliyi ilə nəhəng enerji və nəqliyyat layihələri reallaşdırılıb. Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri istifadəyə verilib. Dəyəri 40 milyard dollardan çox olan "Cənub qaz dəhlizi" layihəsinin tikintisi başa çatmaq üzrədir. Ulu öndər Heydər Əliyevin uzaqgörənliyi sayəsində dünyanın ən nüfuzlu enerji şirkətləri ilə 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilədək uzadılıb.

Prezident İlham Əliyevin bilavasitə təşəbbüsü ilə Azərbaycanın nəqliyyat sahəsində əldə etdiyi nailiyyətlər arasında ötən il oktyabrın 30-da istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu marşrutunun əhəmiyyəti süjetdə xüsusi vurğulanaraq, bunun beynəlxalq yükdaşımalarda önəmi diqqətə çatdırılıb.

Qeyd edilib ki, İlham Əliyevin prezidentliyi dövründə inkişaf etdirilən ən mühüm sahələrdən biri də yüksək texnologiyalar sahəsidir. Ölkədə 2010-cu ildə "Azərkosmos" ASC qurulub. Bundan sonra - 2013-cü ildə Azərbaycanın ilk telekommunikasiya peyki olan "Azerspace-1", 2014-cü ildə "Azersky", keçən ay isə "Azerspace-2" telekommunikasiya peyki orbitə çıxarılıb.

Süjetdə Prezident İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycan Silahlı Qüvvələrinin dünyanın 50 ən güclü ordusu sırasına daxil olduğu qeyd edilib. Azərbaycan Ordusunun 2016-cı ilin aprelində və 2018-ci ilin mayında Ermənistanın növbəti təxribatlarının qarşısını qətiyyətlə alaraq, torpaqlarımızın bir hissəsini işğaldan azad etdiyi qeyd olunub.

Bildirilib ki, hərbi sahədəki uğurlar diplomatiya sahəsində də davam etdirilib və Azərbaycan Ermənistanı dünyada işğalçı ölkə kimi tanıtmağa nail olub. Nüfuzlu beynəlxalq təşkilatlar Ermənistanın işğal etdiyi torpaqları boşaltması üçün qərar və qətnamələr qəbul ediblər. 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyini alaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib.

Süjetdə qeyd edilib ki, dünyada sabitlik və əmin-amanlıq diyarı kimi tanınan Azərbaycan son illərdə bir sıra mötəbər tədbirlərə və idman yarışlarına yüksək səviyyədə evsahibliyi edib. 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsi, dünyada ilk dəfə keçirilən I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları Bakıda yüksək səviyyədə təşkil olunub. 2016-cı ildən etibarən Bakıda hər il "Formula - 1" yarışları keçirilir. 2020-ci ildə isə Azərbaycan futbol üzrə Avropa çempionatının bir neçə oyununa evsahibliyi edəcək.

Süjetdə ulu öndər Heydər Əliyevin prezidentliyi dövründə əsası qoyulan Azərbaycan-Türkiyə qardaşlığının Prezident İlham Əliyevin hakimiyyəti illərində daha da inkişaf etdiyi, ölkələrimizin birlikdə nəhəng layihələr həyata keçirdikləri bildirilib. Belə layihələrdən birinin - SOCAR-ın İzmirdə inşa etdiyi STAR neft emalı zavodunun yaxın günlərdə istifadəyə veriləcəyi qeyd olunub.

Reportajda Azərbaycanın inkişafında Prezident İlham Əliyev ilə yanaşı, Birinci vitse-prezident Mehriban Əliyevanın da mühüm rolu olduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, Prezidentin qızları Leyla və Arzu mədəniyyət və təhsil sahələrində bir çox layihələrin təşəbbüskarlarıdır. Prezident İlham Əliyevin oğlu, babasının adını daşıyan Heydər hazırda həqiqi hərbi xidmətdədir.

# Beynəlxalq Miqrasiya Təşkilatının nümayəndələri ölkəmizdəki dini vəziyyət barədə məlumatlandırılıblar

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı oktyabrın 16-da Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Cenevrə və Vyanada yerləşən qərargahlarının əməkdaşları Ceyson Aplon, Aleksandr Doqqen və BMqT-nin Azərbaycan nümayəndəliyinin rəhbəri Sərhan Aktoprak ilə görüşüb.



Dövlət Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Mübariz Qurbanlı qonaqlara Azərbaycandakı dini vəziyyət, nümunəvi dövlət-din münasibətləri, DQİDK-nın fəaliyyət istiqamətləri, eləcə də konfessiyalararası harmoniya və tolerantlıq modeli barədə məlumat verib. Qeyd edib ki, ölkəmizdə multikulturalizm, dini həmrəylik mühitinin və sivilizasiyalararası dialoqun təşəkkülünə dəstək dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycanda müxtəlif dinlərə eyni ehtiram göstərilir, bütün konfessiyaların nümayəndələri Prezident İlham Əliyevin daimi diqqət və qayğısı ilə əhatə olunublar.

BMqT-nin Azərbaycan nümayəndəliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə layihələrinin uğurla həyata keçirilməsindən məmnunluqlarını ifadə edən qonaqlar faydalı əməkdaşlığın gələcəkdə də davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Qarşılıqlı maraq doğuran məsələlərin müzakirə edildiyi görüşün sonunda M.Qurbanlı qonaqlara Dövlət Komitəsi tərəfindən dərc olunmuş kitablar hədiyyə edib.

# Uşaqların zərərli informasiyadan qorunması qanunla tənzimlənəcək

*Əvvəli 1-ci səh.*








Deputatlar “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” layihəyə də (ikinci oxunuş) müsbət münasibət bildirdilər. Dəyişiklik dövlət və bələdiyyə torpaqlarının istifadəyə, icarəyə və mülkiyyətə verilməsi ilə əlaqədar rayon (şəhər) icra hakimiyyəti başçılarının sərəncamlarının məhkəmələrdə mübahisələndirilməsi məsələsinin tənzimlənməsi ilə bağlıdır. Qanun layihəsi təsdiq olundu.

Komitə sədri Əli Hüseynli “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” qanunun layihəsi haqqında (ikinci oxunuş) məlumat verdi. Qeyd etdi ki, layihə “Doing Business 2018” hesabatının “Biznesə başlama” indikatoru üzrə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması, hüquqi şəxslərin qeydiyyatı zamanı qanuni təmsilçi barədə qeydiyyat orqanına yanlış məlumatların verilməsinin qarşısının alınması məqsədi ilə hazırlanıb. Qanun layihəsi təsdiq olundu.

İclasda “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” qanun layihəsi (ikinci oxunuş) də müzakirə edildi. Layihəyə əsasən 15 yaşı tamam olmamış vətəndaşlardan əl-barmaq izlərinin götürülməsi nəzərdə tutulmur. Deputatlar məsələyə müsbət münasibət bildirdilər.

“Pasportlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Qanununun layihəsi (ikinci oxunuş) isə diplomatik pasport daşıyan vətəndaşların əhatə dairəsini genişləndirir. Belə ki, dəyişikliklərə əsasən Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri nəzdində təsis edilən hərbi attaşelik aparatlarının zabit heyətinə, həmçinin beynəlxalq təşkilatlardakı hərbi nümayəndələrinə və onların müavinlərinə, müvafiq icra hakimiyyəti orqanının xarici dövlətlərdə və beynəlxalq təşkilatlardakı nümayəndələrinə diplomatik pasport veriləcək. Qanun layihəsi təsdiq olundu.

“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun layihəsinin (ikinci oxunuş) müzakirəsi zamanı bildirildi ki, dəyişikliklər texniki və uyğunlaşdırma məqsədi daşıyır. Belə ki, Məcəllənin 213-cü maddəsinin adında dəyişiklik edilərək “Vergi ödəməkdən yayınma” sözləri “Vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma” sözləri ilə əvəz olunur. Layihə təsdiq olundu.

Daha sonra “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” (ikinci oxunuş), “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” (ikinci oxunuş) və “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” (ikinci oxunuş) qanun layihələri müzakirə edildi.

İnzibati Xətalar Məcəlləsinə dəyişiklik qəbiristanlıqların idarə olunması qaydaları haqqında qanunvericiliyin pozulmasına görə inzibati məsuliyyət nəzərdə tutmaq məqsədilə təklif edilir. “Bələdiyyələrin statusu haqqında” qanundakı dəyişiklik qəbiristanlıqların salınması və idarə olunması məsələlərində bələdiyyələrin üzərinə düşən vəzifələrin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq həyata keçirilmədiyi hallarda məsuliyyət məsələsini təmin etmək məqsədilə təklif olunur. “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” qanun layihəsi isə “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli qanununa uyğun olaraq hazırlanıb və yerli (bələdiyyə) büdcədə qəbiristanlıqların salınması, saxlanması, qorunması, idarə olunması, abadlaşdırılması məqsədi ilə zəruri xərclərin nəzərdə tutulmasını təsbit edir. Qanun layihələri təsdiq olundu.

İclasda son olaraq “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikası Qanununun layihəsi (ikinci oxunuş) müzakirə edildi. Bu qanunun qəbulunda məqsəd uşaqların yaşına uyğun informasiya əldə etmək hüququnun həyata keçirilməsi ilə əlaqədar olaraq uşaqların onlar üçün zərərli informasiyadan qorunması tədbirlərini müəyyən etmək və bu sahədə yaranan münasibətləri tənzimləməkdir. Layihə ilə bağlı parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı məlumat verdi. Qeyd etdi ki, əvvəlki oxunuş zamanı müzakirələrdə deputatlar tərəfindən bir sıra təkliflər səsləndirilib. Onların əksəriyyəti layihədə və digər qanunlarda öz əksini tapıb. Bununla belə layihəyə bəzi texniki dəyişikliklər edilib, o cümlədən 3 yeni maddə əlavə olunub.

Müzakirələr zamanı deputatlardan Tahir Kərimli, Elman Nəsirov, Əflatun Amaşov, Aqil Abbas, Sevinc Fətəliyeva, Qənirə Paşayeva, Fəzail Ağamalı, Sahibə Qafarova, Zahid Oruc layihə ilə bağlı təkliflərini bildirdilər. Milli Məclisin Sədr müavini Bahar Muradova bildirdi ki, uşaqların zərərli informasiyalardan qorunmaması hər kəsi narahat edir. Bunun üçün milli mexanizmlər daxil olmaqla, universal mexanizmlərdən də istifadə etmək lazımdır. Deputatların çıxışlarında maraqlı təkliflərin səsləndiyini deyən Bahar Muradovanın sözlərinə görə, bu təkliflərə baxıla bilər. Müzakirə olunan qanun layihəsinin bu sahədəki vəziyyəti tənzimləyəcəyini deyən Bahar Muradova dedi ki, “Kütləvi informasiya vasitələri haqqında”, “Teleradio yayımı haqqında”, “Telekommunikasiya haqqında” qanunlarda da zərərli informasiyaların yayılmasının qarşısının alınmasına dair maddələr var. Milli Məclis Sədrinin müavini onu da bildirdi ki, problemləri söyləmək asandır, amma onların qarşısını almaq üçün mexanizm hazırlamaq çətindir. Bu yöndə təkliflər olmalıdır, o zaman bu sahədə daha yaxşı nəticələr əldə edə bilərik.

Yekunda qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

***Rəşad CƏFƏRLİ, Fərman BAĞIROV (foto), “Azərbaycan”***

# Davamlı inkişaf və möhkəm sabitlik

## Bunlar Azərbaycanın əsas reallıqlarıdır

*Əvvəli 1-ci səh.*

Bu da onu göstərir ki, gəlirlər inflyasiyanı 3,6 dəfə üstələyir. Bu ilin doqquz ayında ölkə iqtisadiyyatına 9 milyard dollar sərmayə qoyulub. Bu vəsaitin 5,6 milyard dolları qeyri-neft sektoruna yatırılıb. Azərbaycanın valyuta ehtiyatları isə 45 milyard dollara çatıb. Doqquz ayda xarici ticarət dövriyyəsi 37 faiz, qeyri-neft ixracı isə təxminən 14 faiz artıb. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, budur, sosial-iqtisadi inkişafımızın əsas göstəriciləri: *“İstənilən mötəbər beynəlxalq maliyyə qurumu bu nəticələri görərkən bir qənaətə gələ bilər ki, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Azərbaycanda çox düşünülmüş iqtisadi siyasət aparılır. Azərbaycan iqtisadiyyatı qarşısında gələcəkdə heç bir ciddi problem yoxdur. Sadəcə olaraq, biz gərək bu sahədə öz islahatlarımızı davam etdirək*”.

Dünyada davam edən neqativ proseslərdən qaynaqlanan amillərin təsirinə baxmayaraq, iqtisadiyyatın şaxələndirilməsi, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafı, eləcə də mövcud çağırışların tələblərinə uyğun çevik iqtisadi islahat tədbirləri sayəsində Azərbaycan iqtisadiyyatı öz dayanıqlılığını möhkəmləndirir. Xüsusən qeyri-neft sektorunun inkişafında başlayan yeni mərhələ artıq yeni iqtisadi uğurların əldə edilməsi ilə müşahidə olunur. Reallıq ondan ibarətdir ki, əgər gələcəkdə də neftin qiymətində kəskin azalmalar baş verərsə belə, bu, Azərbaycan iqtisadiyyatına hər hansı neqativ təsir göstərməyəcək.

### Təhlükəsizlik tərəqqinin təməl daşlarından biridir

Dövlətin yüksəlişinin və iqtisadi inkişafının müxtəlif amillərlə yanaşı, həm də daxili sabitliklə və siyasi-ictimai asayişin təmin olunması ilə birbaşa bağlılığı tarixi təcrübədə təsdiq edilən faktordur. Çünki hazırda bir sıra ölkələrin özünün ən yüksək inkişaf dövrünü yaşaması məhz sabitliyin və qanunçuluğun təmini sayəsində mümkün olub. Amma planetimizin mənzərəsi göstərir ki, çağdaş dünyamız hazırda olduqca gərgin və narahat günlərini yaşamaqdadır. İraqda, Suriyada hələ də hərbi-siyasi gərginlik bitməyib. Bütün bunlar, o cümlədən regionda baş verən qanlı hadisələr göstərir ki, sabitlik və təhlükəsizlik hər bir cəmiyyət üçün nə qədər dəyərlidir.

Azərbaycanda əldə edilən bütün uğurlar həm də sabitliyin nəticəsidir. Bu mənada Azərbaycan cəmiyyəti öz sabitliyi, yüksək əhval-ruhiyyəsi və inkişafa meyilli dinamik harmoniyası ilə yalnız fəxr edə bilər. Azərbaycanın sabitliyin etibarlı təminatı, ictimai asayişin qorunması baxımından bölgənin və dünyanın ən yaxşı göstəricilərə malik ölkələrdən biri olması qürurvericidir. Respublikamız sosial-iqtisadi inkişafı ilə yanaşı, həm də asayişin və əmin-amanlığın qorunması baxımından da dünyada öncüllər sırasındadır. *“Bugünkü dünyada vəziyyəti nəzərə alsaq, deməliyik ki, bu gün sabitlik, təhlükəsizlik hər bir ölkə üçün əsas amillərdən biridir. Azərbaycanda isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik qorunur, möhkəmlənir. Sabitliyin, uğurlu inkişafımızın təməlində bizim düşünülmüş siyasətimiz dayanır, eyni zamanda, xalq tərəfindən bizim siyasətimizə göstərilən dəstək dayanır*”, - deyə hökumətin iclasında Prezident İlham Əliyev bu barədə bildirib.

Bütövlükdə 2018-ci il Azərbaycan üçün iqtisadi baxımdan böyük uğurlarla zəngindir. Öz növbəsində “Cənub qaz dəhlizi”nin, TANAP-ın, Ələt Beynəlxalq Dəniz Ticarət Limanını istifadəyə verilməsi, üçüncü peykin orbitə buraxılması Azərbaycanın iqtisadi, həm də mühüm siyasi nailiyyətləridir. Çünki bu nəhəng layihələrin işə düşməsi yeni maliyyə mənbələrinin yaranması, ölkəyə valyuta axınının artması, nəticə etibarilə Azərbaycanın inkişafı və xalqın sosial rifahının yüksəlməsi deməkdir. Buna görə həm 2018-ci, həm də qarşıdan gələn növbəti illərin Azərbaycanda yüksəliş dövrləri olacağı şübhəsizdir.

***R.CƏFƏRLİ, “Azərbaycan”***

# Regionlar yeni sürət götürür

## Həm qeyri-neft sektorunun inkişafında, həm də güzəranın yaxşılaşmasında



*Əvvəli 1-ci səh.*

Həm Prezidentin qeyd etdikləri, həm də qısaca sadaladığımız digər tədbirlər bir daha təsdiqləyir ki, ölkədə qeyri-neft sektorunun inkişafı bütün iqtisadi hədəflərdən öndədir. Bu isə eyni zamanda həm də regionların inkişafının davamı deməkdir. Elə hökumətin qeyd etdiyimiz iclasında Prezidentin 4-cü regional inkişaf Dövlət Proqramının qəbul olunacağını açıqlaması da bunun rəsmi təsdiqidir. Növbəti proqramda da regionların dayanıqlı və tarazlı inkişafı, yerlərdə rəqabətqabiliyyətli iqtisadiyyat, yüksək standartlara cavab verən sosial rifah, təbii resurslardan səmərəli istifadə, ətraf mühitin etibarlı mühafizəsi, eləcə də qeyri-neft sektorunun inkişafı çərçivəsində real sektorun dəstəklənməsi, sahibkarlıq fəaliyyətinin daha da stimullaşdırılması və s. məsələlər əsas hədəflər olacaq.

Qeyri-neft sektorunun və regional inkişafın bir-birini tamamlamasının ən yüksək səviyyədə etirafının digər təsdiqi isə Nazirlər Kabinetinin bu fikirlərin səsləndiyi son iclasından sonra dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkənin cənub bölgəsinə səfərləri oldu. Ümumiyyətlə, 15 illik ənənə tarixi olan belə səfərlərin regionlarımız üçün xüsusi əhəmiyyəti var. Əvvəla, yerlərdə açılışında ölkənin ali rəhbərliyinin iştirakı nəzərdə tutulan hər hansı layihə həyata keçiriləndə həm rayon və ya şəhər rəhbərliyi, həm də layihənin sifarişçiləri və icraçıları özlərində əlavə məsuliyyət hiss edirlər. İkincisi, Prezident heç bir regiona əliboş getmir, səfər etdiyi rayonun, şəhərin bu və ya digər sosial-iqtisadi probleminin həllinə lazım olan vəsaitin ayrılması üçün sərəncam imzalayır. Hər iki baxımdan dövlət başçısının regionlara səfərləri çox uğurlu ənənədir. Yeri gəlmişkən qeyd edək ki, ölkə rəhbərliyinin cənub bölgəsinə budəfəki səfəri də ənənədən kənara çıxmadı - Lənkəranda, Astarada, Lerikdə bir çox mühüm obyektlərin açılışı oldu, əhalini rahatsız edən problemlərin həlli üçün vəsait ayrıldı. Ən azından bunlar qədər vacib sayıla bilən həm də o oldu ki, hər üç rayonda əhali dövlət başçısı, onun xanımı və silahdaşı ilə görüşüb səmimi söhbət etdi.

Bütün bunlardan sonra qayıdaq yazımızın mövzusuna, yəni qeyri-neft sektoru və regionların paralel inkişafına. Əslində növbəti dəfə buna əmin olmaq üçün sözügedən səfər çərçivəsində ali qonaqların iştirakı ilə açılan və ya istifadəyə verilən obyektlərin təyinatına nəzər salmaq kifayətdir. Lənkəranda İstisu və Sağlamlıq Mərkəzi, Olimpiya İdman Kompleksi, “Lənkəran-2” elektrik yarımstansiyası, “Azərxalça” ASC-nin filialı, Qida Təhlükəsizliyi Agentliyinin Regional Sınaq Laboratoriyası, 7 yaşayış məntəqəsini rayon mərkəzi ilə birləşdirən Hirkan-Daştatük-Biləsər avtomobil yolu, Astarada yenidən qurulan su və kanalizasiya sistemi, dənizkənarı park-bulvar, Lerikdə 28 yaşayış məntəqəsini birləşdirən Piran-Hamarat-Viyaker avtomobil yolu, içməli su təchizatı və ilk dəfə qurulan kanalizasiya sistemi - göründüyü kimi, bütün bunlar müxtəlif dərəcədə, birbaşa və ya dolayısı ilə qeyri-neft sektorunun inkişafına xidmət edən obyektlərdir. Əgər onlarca kəndi əhatə edən avtomobil yolu yenidən qurulursa, bu, həmin ərazilərdə yaşayıb işləyən fermerlərin öz məhsullarını rahat, itkisiz, vaxtında bazara çıxara bilmələri deməkdir. Əgər Lerik kimi ucqar dağ şəhərində kanalizasiya sistemi qurulursa, deməli, orada infrastruktur yüksək səviyyədədir. Bu da istər yerli, istərsə də xarici investorlar üçün vacib şərt hesab olunur. Əgər nəzərə alsaq ki, cənub bölgəsi həm də ölkəmizin yüksək turizm potensialına malik regionudur, onda istifadəyə verilən 182 nömrəlik hotelə və 2 aktiv su mənbəyinə malik İstisu və Sağlamlıq Mərkəzinin, 53 nəfərlik mehmanxana, 788 tamaşaçı tutan universal idman salonu, 70 yerlik konfrans zalı, müasir üzgüçülük hovuzu ilə Olimpiya İdman Kompleksinin də əhəmiyyəti məlum olar.

Bir sözlə, bu gün Azərbaycanın regionlarında hansı layihələr reallaşdırılırsa, onlar bir-biri ilə bağlı olan iki əsas məqsədə - qeyri-neft sektorunun inkişafına və əhalinin güzəranının yaxşılaşmasına xidmət edir.

***Raqif MƏMMƏDOV, “Azərbaycan”***

# “Şimal-Cənub nəqliyyat dəhlizi” Azərbaycana böyük iqtisadi və siyasi dividendlər gətirəcək

## Bu dəhlizlə ölkəmizin ərazisindən daşınan yüklərin 100 dəfə artması uğurların başlanğıcıdır

*Əvvəli 1-ci səh.*



Bu məqsədlə Azərbaycan və İran tərəfləri birgə səylər göstərib, dəhlizlə bağlı məsələlər qonşu ölkələrlə də mütəmadi müzakirə edilib. Bunlar yolun açılması üçün möhkəm zəmin yaradıb.

2016-cı və 2017-ci illərdə Azərbaycan ərazisində dəmir yolunun çatışmayan hissələri inşa edilib. Astaraçay üzərində körpü salınıb. Keçən il Azərbaycandan İran ərazisinə ilk sınaq qatarı keçib, sonra yük terminalının inşasına başlanıb.

Astara-Rəşt dəmir yolu xətti qonşu ölkələrin iqtisadi, siyasi sahədə əməkdaşlığını gücləndirəcək və onları dəmir halqalar kimi bir-birinə bağlayacaq. Belə ki, bu dəmir yolunun istifadəyə verilməsi möhkəm sistem yaradaraq Avrasiya ölkələrinin qarşılıqlı əlaqələrinin genişlənməsində mühüm rol oynayacaq.

Astara-Rəşt dəmir yolu işə düşdükdən sonra Azərbaycanın Fars körfəzinə, Oman dənizinə, Hind okeanına, Afrika ölkələrinə çıxışı asanlaşacaq, Rusiya və Mərkəzi Avropa ilə əməkdaşlıq imkanları xeyli artacaq. Azərbaycan tranzit ölkə kimi böyük iqtisadi səmərə ilə yanaşı, həm də böyük siyasi dividendlər əldə edəcək. Ölkəmiz regionda aparıcı mövqeyini möhkəmləndirəcək.

Məlum olduğu kimi, Astara-Rəşt dəmir yolu Azərbaycan və İran dövlətlərinin iradəsi və səyi nəticəsində gerçəkləşir. Cari ilin mart ayında İranın Prezidenti Həsən Ruhaninin Azərbaycana rəsmi səfəri çərçivəsində Astara-Rəşt dəmir yolu hissəsinin tikintisinin maliyyələşdirilməsi haqqında Bakıda respublikamızın iqtisadiyyat naziri və İranın iqtisadiyyat və maliyyə nazirinin imzaladıqları sənəd buna daha bir misaldır. Həmin sənəd bütünlükdə bu ərazidə tranzit nəqliyyat kompleksinin inkişafına təkan verəcək. Müqavilənin bağlanması eyni zamanda, regionda sülhün və əməkdaşlığın təhlükəsizliyinə zəmanət verən addım kimi qiymətləndirilməlidir.

Sözügedən səfər çərçivəsində keçirilən biznes forumda Azərbaycan Prezidenti İlham Əliyev əmin olduğunu bəyan etmişdir ki, “Şimal-Cənub nəqliyyat dəhlizi”nin çatışmayan hissəsi - Astara-Rəşt dəmir yolu qısa müddət ərzində tikiləcək və beləliklə, bütün Avrasiya regionu üçün yeni imkanlar açılacaq.

Bu günlərdə İranın Dövlət Dəmir Yolları İdarəsinin rəisi S.Məmmədzadə də Azərbaycanın bu dəhlizin formalaşmasında fəaliyyətini yüksək qiymətləndirmişdir. Vurğulamışdır ki, Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu beynəlxalq yükdaşımaları həyata keçirməklə yanaşı, iki ölkə arasında iqtisadi və ticarət əlaqələrinin də inkişafına böyük töhfə verəcək. O, həmçinin İran, Azərbaycan və Rusiyanın dəmir yolları sistemlərini birləşdirəcək “Şimal-Cənub beynəlxalq dəhlizi”nin əsasını təşkil edən bu dəmir yolu xətti tam istifadəyə verildikdən sonra daşınan yüklərin həcminin xeyli artacağını, nəqliyyat xərclərinə ödənilən vəsaitə qənaət ediləcəyini bildirmişdir.

Astara-Rəşt dəmir yolunun qısa müddətdə istifadəyə verilməsi ölkəmizin iqtisadi inkişafına, iqtisadiyyatın diversifikasiyasına, onun ixrac imkanlarının artırılmasına, bölgədə iqtisadi, siyasi əməkdaşlığın keyfiyyətcə yeni mərhələsinə daxil olmağa imkan yaradacaq.

Beləliklə, qitələri birləşdirəcək Astara-Rəşt dəmir yolu tranzit ölkələrə, o cümlədən Azərbaycana böyük mənfəət gətirməklə bölgədə keyfiyyətcə yeni əməkdaşlıq formalarının yaranmasına, inkişafına səbəb olacaq. Astara-Rəşt dəmir yolunun işə düşməsi nəticəsində xəttin keçdiyi regionlarda yeni iş yerləri açılacaq, logistik infrastrukturlar yaradılacaq, ticarət şəbəkəsi genişlənəcək, sahibkarların, iş adamlarının dünya bazarına çıxış imkanları daha da artacaq. Bu həmçinin bölgədə turizmin inkişafına, yolun keçdiyi ərazi boyunca ticarətin genişləndirilməsinə təkan verəcək.

Hazırda “Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi”nin tərkib hissəsi olan M-1Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun H.Z.Tağıyev qəsəbəsindən başlayan 92 kilometrlik hissəsinin inşası da davam etdirilir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu günlərdə Quba rayonuna səfər çərçivəsində avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış olmuşlar. Yeni inşa edilən yol Şabran rayonunun Gəndov kəndindən Rusiya sərhədinədək uzanan 60 kilometrlik yolla birləşəcək. Bununla da yeni avtomobil yolunun uzunluğu 152 kilometrə çatacaq. Bu avtomobil yolu ödənişli olacaq. Yolun istifadəyə verilməsi nəqliyyat xidmətlərini daha da yaxşılaşdıracaq, bölgədə turizmin inkişafına dəstək verəcək. Ən başlıca şərtlərdən biri də odur ki, yeni yol “Şimal-Cənub nəqliyyat dəhlizi” ilə yük və sərnişin daşınmasında mühüm rol oynayacaq.

Bütün bunlar region ölkələri arasında əməkdaşlığın inkişafına təkan verir. Eləcə də Azərbaycanın iqtisadi gücü ilə yanaşı, siyasi nüfuzunu da artırır. Nazirlər Kabinetinin iclasında Prezident İlham Əliyev “Şimal-Cənub nəqliyyat dəhlizi”nın əhəmiyyəti barədə demişdir: “Biz indi tərəfdaş ölkələrlə bu layihənin tam həyata keçirilməsi üçün çox ciddi danışıqlar aparırıq. Azərbaycanın həm texniki təcrübəsi, həm də mütəxəssisləri və maliyyə resursları var. Azərbaycan ərazisində bütün işləri biz özümüz görürük və başqa yerlərə də öz maliyyə imkanlarımızı cəlb edə bilərik ki, bu dəhliz tam gücü ilə işləsin və ölkəmizə əlavə valyuta gətirsin. Bizim əsas məqsədimiz budur. Əlbəttə ki, tranzit ölkələrin siyasi çəkisi də, siyasi imkanları da artır. Regionda əməkdaşlığın inkişafı üçün o ölkələrin rolu artır. Biz istəyirik ki, bizim rolumuz artsın. Biz istəyirik ki, Azərbaycan ilə daha çox hesablaşsınlar”.

Beləliklə, “Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi” yük və sərnişin daşınmasında geniş fəaliyyət göstərməklə yanaşı, gəlirlərin çoxalmasına, nəqliyyat infrastrukturunun inkişafına, bölgələrdə yeni iş yerlərinin açılması ilə sosial problemlərin uğurlu həllinə və ölkəmizin siyasi nüfuzunun artmasına xidmət edəcək.

***Flora SADIQLI, “Azərbaycan”***

# Sosial ədalətin təminatından çevik, şəffaf və sivil xidmətlərə doğru

**Azərbaycan milli dövlətçiliyin güclü siyasi-ideoloji, iqtisadi-sosial təməllər üzərində möhkəmləndiyi, vətəndaş rifahının makroiqtisadi tərəqqinin başlıca məqsədi kimi çıxış etdiyi, iqtisadi siyasətlə sosial siyasətin vəhdəti üzərində sosial dövlət statusunun gücləndiyi ölkələr sırasındadır. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi milli inkişaf strategiyasında ölkə vətəndaşının layiqli həyat səviyyəsinin təmin edilməsi və sosial ədalət prinsipinin üstünlüyü ön planda dayanmış, sosial cəhətdən həssas qrupların cəmiyyətin digər üzvləri ilə bərabərhüquqlu və dolğun müdafiəsinə xidmət edən etibarlı və əhatəli sosial sistemin formalaşdırılması bu strategiyanın ana xəttini təşkil etmişdir.**



Azərbaycanın dayanıqlı inkişaf mənzərəsini tamamlayan sosial uğurlar Prezident İlham Əliyevin siyasətinin mərkəzində vətəndaş amilinin dayanmasının praktik müstəvidə təsdiqidir. Milli iqtisadiyyatın 3,2, o cümlədən qeyri-neft sektorunun 2,8, qeyri-neft məhsulları ixracının 4,1 dəfə artdığı, iqtisadiyyata 231 milyard dollar sərmayə qoyuluşunun təmin edildiyi son 15 ildə əməkhaqları təxminən 7, minimum əməkhaqqı 23, pensiyalar 11,3 dəfə artıb. Bu dövrdə dövlət büdcəsinin sosialyönümlü xərcləri 10, o cümlədən sosial müdafiə və sosial təminat xərcləri 11 dəfə çoxalıb.

2003-2017-ci illərdə respublikada 1,4 milyonu daimi olmaqla 1,9 milyon yeni iş yerinin açılması məşğulluq imkanlarının artmasına, əmək bazarında sabitliyə, işsizliyin və yoxsulluğun 5,04 faiz səviyyəsinə enməsinə səbəb olub. Sosial infrastrukturun müasir səviyyədə qurulması və inkişafı təmin edilib. 3,1 min məktəb, 640-dan çox xəstəxana tikilib və ya yenidən qurulub. Bölgələrdə 43 Olimpiya İdman Mərkəzi istifadəyə verilib. 12,3 min kilometr yol çəkilib, 443 körpü inşa edilib, 92 müasir qəsəbə və yaşayış kompleksi salınaraq 270 minədək məcburi köçkün müasir şəraitli mənzillərlə təmin olunub.

Prezident İlham Əliyevin uğurlu sosial siyasəti ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə şərait yaradıb. Dövlət başçısının "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 19 aprel 2018-ci il tarixli fərmanı şəhid hərbi qulluqçuların ailə üzvlərinə xüsusi qayğının daha bir əyani təsdiqidir. Sənəd 1997-ci il avqustun 2-dək şəhid olmuş hər bir hərbi qulluqçunun vərəsəsinə 11 min manat məbləğində birdəfəlik ödəmə verilməsini nəzərdə tutur. Fərmanın icrasının tam şəffaf, vətəndaş məmnunluğuna səbəb olacaq şəkildə yerinə yetirilməsi üçün nazirlikdə yaradılmış komissiya tərəfindən müvafiq işlər görülüb. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ümumi siyahısını, Ədliyyə Nazirliyi həmin şəhid hərbi qulluqçulardan sığorta ödənişinin verilməsinə dair qanuni qüvvəyə minmiş məhkəmə aktı olanların siyahısını, Dövlət Sığorta Kommersiya Şirkəti isə vərəsələrinə sığorta ödənişi verilmiş hərbi qulluqçuların siyahısını nazirliyə təqdim ediblər. Həmin siyahılar üzərində dəqiqləşdirmə işləri aparılmaqla, yekun siyahı artıq cari il oktyabrın 9-dan nazirliyin saytında (www.mlspp.gov.az) "BİRDƏFƏLİK ÖDƏMƏ" bölməsində yerləşdirilib. Bu barədə eyni zamanda şəhid hərbi qulluqçuların vərəsələrinin qeyd olunan birdəfəlik ödəməni almaq üçün müraciət qaydaları ilə bağlı əhalinin geniş məlumatlandırılması təmin edilib.

Müraciət proseduru kifayət qədər sadə şəkildə hazırlanıb. Yəni ilk növbədə şəhid hərbi qulluqçuların ailə üzvləri "BİRDƏFƏLİK ÖDƏMƏ" bölməsinə daxil olaraq hərbi qulluqçunun soyadı, adı və atasının adını daxil edir, birdəfəlik ödəməni almağa hüquqlarının olub-olmadığını yoxlayırlar. Axtarışın nəticəsi olaraq "Hərbi qulluqçunun Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən müəyyən edilən vərəsəsinin (vərəsələrinin) birdəfəlik ödəməni almaq hüququ vardır" cümləsi çıxdıqda, həmin vərəsə vəfat etmiş hərbi qulluqçunun sonuncu yaşayış yeri, bu məlum olmadıqda mirasının olduğu yer üzrə notariat kontoruna müvafiq sənədlərlə müraciət edir. Bu sənədlərə hərbi qulluqçunun ölümü haqqında şəhadətnamə, hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edildiyi halda bu barədə məhkəmə qərarı, birdəfəlik ödəmənin verilməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin adına ünvanlanan ərizə (ərizə forması notariat orqanından əldə edilir), bank hesabı nömrəsinə dair arayış (vərəsənin bank hesabı olmadıqda o, istənilən bankda öz adına hesab açır və bank hesabı nömrəsinə dair arayış alır) daxildir. Notariat orqanı tərəfindən vərəsəlik şəhadətnaməsi verildikdə vərəsəlik şəhadətnaməsi və vərəsənin təqdim etdiyi sənədlərdəki məlumatlar notarius tərəfindən elektron qaydada 3 iş günü müddətində nazirliyin Mərkəzi Elektron İnformasiya Sisteminə ötürülür və bu əsasda da elektron növbəlilik formalaşır. Həmin növbəlilik üzrə birdəfəlik ödəmələrin tam şəffaf şəkildə verilməsinə başlanması planlaşdırılır.

Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş şəxslərin və şəhid ailələrinin mənzillə, o cümlədən müharibə əlilləri və onlara bərabər tutulan şəxslərin minik avtomobilləri ilə təminatı proqramları da ildən-ilə uğurla davam etdirilir. 1 avqust 2018-ci ildə daha 35 mənzilin Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə, 136 minik avtomobilinin Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə təqdim olunması da bunu təsdiq edir. Mənzillərin və avtomobillərin təqdim olunması mərasimində Prezident İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın şəxsən iştirak etmələri ümumən əlillərə, şəhid ailələrinə qayğının və hörmətin növbəti təzahürüdür.

Həmin tədbirdə dövlət başçısı bəyan etdi: "Sosial siyasət Azərbaycanda prioritet məsələlərdən biridir. Mən dəfələrlə demişəm ki, bizim bütün işlərimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Xüsusilə sosial cəhətdən az müdafiə olunan vətəndaşlar, işğaldan əziyyət çəkmiş, əlil olmuş, yaxınlarını itirmiş insanlar, onların yaşayışı, məşğulluğu, həyat səviyyəsi bizim üçün prioritet məsələdir. Biz imkan daxilində bu məsələləri həll edirik. Deyə bilərəm ki, işğaldan və etnik təmizləmədən əziyyət çəkmiş dövlətlər arasında Azərbaycanda bu sahədə görülən işlər ən yüksək səviyyədədir. Bunu beynəlxalq təşkilatlar da, BMT də qeyd edir və Azərbaycan təcrübəsi bir çox ölkələr üçün nümunə kimi göstərilir. Bəlkə də dünyada öz vətəndaşlarına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur. Bu, bir daha bizim siyasətimizin niyyətini əks etdirir. Bu siyasət davam etdiriləcək. Bir daha demək istəyirəm ki, bu gün növbədə duran bu kateqoriyadan olan bütün insanlar imkan daxilində mənzillərlə, evlərlə, maşınlarla təmin ediləcəklər".

Bu mərasimdən bir gün sonra Prezidentin imzaladığı sərəncamla Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə bu il əlavə olaraq minimum 300 mənzilin alınması üçün 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 20 milyon manat ayrılması, bununla da cari ildə Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə nəzərdə tutulduğundan 2,4 dəfə çox olmaqla 500-dən artıq mənzilin verilməsinə imkan yaranması ölkədə aparılan sosial siyasətin daim güclənməkdə olduğunu, sosial cəhətdən həssas qrupların rifah halının yaxşılaşdırılmasının, insan amilinin dövlət başçısının uğurlu siyasətinin mərkəzində dayandığını bir daha təsdiqləyir.

Mənzillə təminat proqramı kimi sosial rifahda olduqca mühüm yer tutan tədbirlərin miqyası son illər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsləri nəticəsində daha da genişlənib. Belə ki, ölkədə sosial ədalətin təminatında və sosial siyasətdə humanitar prinsiplərin güclənməsində xüsusi önəm kəsb edən xeyirxah təşəbbüs kimi Heydər Əliyev Fondunun sosial əhəmiyyətli layihəsi - valideyn himayəsindən məhrum uşaqların mənzillə təmin olunması layihəsi xüsusi vurğulanmalıdır.

Prezident İlham Əliyevin bu təbəqədən olan gənclərə xüsusi qayğısı belə bir nəcib layihənin ölkəmizdə uğurla gerçəkləşməsinə şərait yaradıb. Artıq Abşeron rayonunda iki çoxmənzilli yaşayış binası tikilərək dövlət uşaq müəssisələrinin məzunu olan, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum gənclərin istifadəsinə verilib. Burada 243 gənc mənzillə təmin olunub. Onlar üçün hər cür sosial infrastruktur yaradılıb. Bu mühüm stimul həmin gəncləri həyat yolunda inamla addımlamağa, uğurlu bir gələcəyə sahib olmağa, vətəndaşları olduqları bu dövlətin tərəqqisinə fayda verməyə ruhlandırıb. Hazırda "Məzun evi" kimi fəaliyyət göstərən müəssisədə bu kateqoriyadan olan gənclər üçün daha bir yaşayış binasının inşası da yekunlaşmaqdadır. Müəssisədə yaşayan gənclərin məşğulluğunun təmini, peşə hazırlıqlarının təşkili, əmək bazarına asan inteqrasiya etmələri üçün də ardıcıl işlər aparılır. Onlardan böyük əksəriyyəti müəssisədə və ətrafdakı ayrı-ayrı obyektlərdə iş yerləri ilə təmin olunub, eyni zamanda bir qismi özünüməşğulluq proqramına da cəlb edilib.

Bu gün nazirlik tərəfindən ümumilikdə 4,8 milyon insana əmək, məşğulluq, sosial təminat, sosial sığorta və s. üzrə 120-dən çox xidmət göstərilir. O cümlədən 1,3 milyon insan əmək pensiyası, 480 mindən çox şəxs aylıq və birdəfəlik sosial müavinət, 50 min ailə sosial yardım, 63,4 min insan Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdü, 15 minədək insan səyyar və stasionar sosial xidmətlərlə təmin olunur, 620 mindən çox əlilliyi olan şəxsə dəstək verilir. Ölkənin ümumi inkişafı bu sosial təminat növlərinin artımı ilə müşahidə olunur. Məsələn, ölkəmizdə pensiyanın orta aylıq məbləği 2017-ci ilin müvafiq dövrünə nisbətən 8,4 faiz artaraq 221,1, o cümlədən, yaşa görə əmək pensiyalarının orta aylıq məbləği 249,1 manata çatıb.

Dövlət Sosial Müdafiə Fondunun gəlirləri də artmaqda davam edir və cari ilin 9 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə bu gəlirlərdə 16,07 faiz (və ya 406,84 milyon manat), o cümlədən məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalarda 10,33 faiz (və ya 154,99 milyon manat) artım qeydə alınıb. Dövlət başçısının hər il imzaladığı sərəncamlarla sosial müavinətlərin, təqaüdlərin mütəmadi artırılması təmin edilməklə sosial xidmətlərin də əhatə dairəsi genişlənir. Bunun əməli təsdiqi olaraq son illər sosial reabilitasiya mərkəzləri və sığınacaqlar kompleksi, sosial əhəmiyyətli digər bir sıra yeni müəssisələr yaradılaraq istifadəyə verilib. Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Qobustan rayonu ərazisində Sosial Adaptasiya Mərkəzinin inşası da artıq yekunlaşır. Dövlət sosial sifarişləri üzrə çoxsaylı layihələr icra edilməklə bölgələrdə günərzi və icma əsaslı reabilitasiya mərkəzləri yaradılıb. Respublika Əlillərin Bərpa Mərkəzində, Uşaq Bərpa Mərkəzində, digər bir sıra bərpa və sosial xidmət müəssisələrində müasir tələblərə uyğun şəraitin yaradılması təmin edilib. Yevlax rayonunda və Naftalan şəhərindəki bərpa mərkəzlərində, Mərdəkan Müalicə Pansionatında, 1 saylı psixonevroloji Sosial Xidmət Müəssisəsində əsaslı təmir və yenidənqurma işləri artıq yekunlaşır.

Prezident İlham Əliyevin islahatlar proqramına uyğun olaraq bu gün nazirlikdə əmək qanunvericiliyinin tətbiqinə dövlət nəzarəti sisteminin İKT-nin geniş tətbiqi üzərində və mütərəqqi dünya praktikaları əsasında təkmilləşdirilməsinə, həmin sistemin işçi və işəgötürənlərin qanuni mənafelərinin təminatında, qeyri-rəsmi məşğulluğun qarşısının alınmasında çevik və fəal, təsirli alətlərə malik olmasına, məşğulluq xidmətlərinin çeşidlərinin və keyfiyyətinin, işsiz və işaxtaranlar, işəgötürənlər üçün əlçatanlıq səviyyəsinin yüksəldilməsinə və şəffaflaşmasına, vahid məşğulluq portalının yaradılmasına, sosial təminat sistemində ünvanlılıq və şəffaflığın tam təminatına, aktiv əmək bazarı proqramlarının, özünüməşğulluq proqramının genişləndirilməsinə, əmək bacarıqlarının artırılması üçün mövcud peşə tədrisi sisteminin maddi-texniki imkanlarının genişləndirilməsinə yönəlib.

Aparılan işlərin əsas məqsədi dövlət başçısının siyasətinin mərkəzində dayanan vətəndaş amili ilə bağlı olaraq ölkə vətəndaşının sosial siyasətin nəticələrini öz həyatında yaxından hiss etməsinə, onun rifahına təminat verən bu sosial siyasətdən layiqli və şəffaf şəkildə faydalana bilməsinə əlverişli şərait yaratmaqdır. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu istiqamətdə aparılan islahatlarla bağlı deyib: "Sosial sahədə ciddi islahatlar aparılır. Nazirliyin yeni rəhbərliyinə mənim tərəfimdən çox ciddi tapşırıqlar verildi ki, sosial ədaləti pozanlara qarşı çox ciddi tədbirlər görülsün. Bu sahədə rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə çox ciddi aparılmalıdır və hazırda aparılır, şəffaflıq təmin edilir, bu sahədə yol verilmiş pozuntular aradan qaldırılır. İnzibati və institusional yollarla bu sahədə də ən müasir elektron texnologiyalar tətbiq olunmalıdır ki, şəffaflıq və ədalət tam təmin edilsin".

Dövlət sosial xidmətlərinin vətəndaşa daha yaxın və əlçatan olması, bu xidmətlərlə vətəndaş arasında bürokratik sədlərdən uzaq, tam şəffaf mühitin yaradılması, xidmətlərdən istifadə mexanizminin çevikliyinin və rahatlığının təmin edilməsi hazırda qarşımızda duran əsas hədəflərdəndir. Bu mənada Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın dövlət sosial xidmətlərinin göstərilməsində mühüm innovativ yeniliyin tətbiqini nəzərdə tutan, bu xidmətlərin vahid mərkəzdən, tam şəffaf, operativ, əlçatan şəkildə təqdim olunması, əhalinin həmin xidmətlərə, eləcə də xidmətlərlə bağlı məlumat və məsləhət xidmətlərinə çıxışının asanlaşdırılması ilə bağlı təşəbbüsü xüsusi önəm kəsb edib. Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı bu təşəbbüsün reallaşmasına, dövlət xidmətlərinin geniş bir sektorunu əhatə edən əmək, məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik, pensiya, sosial sığorta və digər müvafiq sahələr üzrə xidmətlərin göstərilməsi üçün nazirliyin tabeliyində DOST (Dayanıqlı və Operativ Sosial Təminat) Agentliyinin və DOST mərkəzlərinin yaradılmasına təminat verib.

Dövlət başçısı bununla əlaqədar "Sosial sahədə biz "ASAN xidmət"in analoqunu yaradırıq - Dayanıqlı və Operativ Sosial Təminat mərkəzləri, bunun adı da yaxşıdır - DOST mərkəzləri, mənası da yaxşıdır. Hesab edirəm ki, bu sahədə vətəndaşlar yaxın gələcəkdə müsbət dəyişiklikləri görəcəklər, artıq görürlər. İndi yerlərdən məlumat gəlir, ancaq biz hələ islahatların birinci mərhələsindəyik", - deyə bildirib.

İldə orta hesabla nazirliyə təxminən 8 mln. elektron müraciət, nazirliyin 142-Çağrı mərkəzinə 160 min telefon zəngi (müraciət) daxil olur. DOST mərkəzlərinin yaradılması bütün bu istiqamətlərin vahid müstəvidə sistemləşdirilmiş formatda təmərküzləşməsinə, əmək, məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik, pensiya, sosial sığorta və nazirliyin digər müvafiq sahələri üzrə xidmətlərdən "bir pəncərə"dən, bir mərkəzdən operativ, sadələşdirilmiş prosedurlarla, şəffaf və nəzakətli, vətəndaş rahatlığı prinsipi əsasında təqdim edilməsinə, xidmətlərin əhatə dairəsinin genişləndirilməsinə imkan verəcək.

Aztəminatlı ailələr, əlilliyi olan insanlar, pensiyaçılar, işsiz və işaxtaran şəxslər, sığortaolunanlar, sığorta edənlər və s. DOST mərkəzləri vasitəsilə onlara istiqamətlənən xidmətlərə daha yaxın olacaqlar, bu xidmətlərlə onlar arasında bürokratiya və süründürməçiliyə şərait yaradan maneələr tam aradan qalxacaq. Vətəndaş həm bir ünvana - DOST mərkəzinə üz tutmaqla və ya elektron qaydada (o cümlədən mobil tətbiqdən istifadə ilə), yaxud Çağrı mərkəzi ilə (telefonla) müraciət etməklə əmək, məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik, pensiya və s. ilə bağlı hazırda və eyni zamanda gələcəkdə əldə edə biləcəyi xidmətlər barədə məlumat alacaq, həm də bu xidmətlərə hüquq yarandığı halda hüquqların elə mərkəzdəcə reallaşdırılması təmin ediləcək. Eyni zamanda müraciət imkanı məhdud şəxslərə səyyar formada xidmətlər göstəriləcək.

Müraciətlərlə əlaqədar bütün zəruri məlumatlar aidiyyəti elektron sistemlərdən əldə edilməklə emal olunacaq, operativ cavablandırma və həll mexanizmləri reallaşdırılacaq. Çevik hesabat vermə və şikayət, monitorinq və qiymətləndirmə, müraciətlərə baxılma prosesinin izlənməsi də şəffaflığa təminat yaradacaq.

İlk DOST mərkəzinin yaxın vaxtlarda paytaxtda, sonrakı mərhələdə bütün ölkə boyu yaradılması təmin ediləcək. Bir sıra ölkələrdə mövcud olan və əhatəlilik baxımından lokal xarakter daşıyan mərkəzlərdən fərqli olaraq, sosial sahədə kifayət qədər geniş xidmətləri əhatə edəcək DOST mərkəzləri Azərbaycanın daha bir yeni brendi kimi özünü göstərəcək. Prezident İlham Əliyevin 5 sentyabr 2018-ci il tarixdə imzaladığı "Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında" fərmana əsasən isə nazirliyin informasiya sistemləri əsasında "Mərkəzləşdirilmiş elektron informasiya sistemi" (MEİS), "e-sosial" internet portalı, həmçinin MEİS-də məşğulluq altsistemi formalaşdırılacaq. Bunlar da nazirliyin fəaliyyət istiqamətləri üzrə xidmətlərin vahid platforma üzərindən "bir pəncərə" prinsipi üzrə təkmil və sistemli, sadələşdirilmiş, eyni zamanda bir-biri ilə əlaqələndirilmiş şəkildə, tam şəffaf, operativ və vətəndaşlarla açıq iş şəraitində əhaliyə təqdim edilməsi üçün zəruri elektron infrastrukturun formalaşmasına imkan verəcək.

Bu fərmanlar Prezident İlham Əliyevin əhaliyə xidmətlərin keyfiyyətinin yüksəldilməsinə xüsusi qayğısının növbəti təzahürüdür. Eyni zamanda, müvafiq fərmanda DOST Agentliyi və mərkəzlərinin yaradılması yönündə əsas sənədlərin və layihələrin hazırlanmasının Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya həvalə olunması bir tərəfdən əhalinin sosial sahə üzrə xidmətlərdən layiqli şəkildə faydalanmaları üçün görülən işlərə yüksək diqqət və qayğını ifadə edir, digər tərəfdən bu sahədə fəaliyyətin ən yüksək səviyyədə təşkilinə və uğurlu nəticələr verəcəyinə tam əminlik yaradır. Bu əminliyin əsasında isə Mehriban xanım Əliyevanın böyük təşkilatçılıq təcrübəsi, əhaliyə xidmətlərin yüksək səviyyədə təşkilinə daim sayğı və diqqətlə yanaşması, vətənimizin milli-mədəni intibahı və xalqımızın sosial və mənəvi inkişafı proseslərində misilsiz xidmətlərlə zəngin fəaliyyəti dayanır.

Mehriban xanım Əliyeva Azərbaycanda sosial problemlərin həlli, xüsusi dəstəyə ehtiyac duyan insanların, həssas qrupların diqqət və qayğı ilə əhatə olunması, elm və təhsilin, səhiyyənin təkmilləşdirilməsi, milli-mədəni dəyərlər sisteminin qorunması və inkişafı, mərhəmət və humanizm prinsiplərinin ictimai həyatda möhkəmlənməsi, mədəniyyətlərarası dialoqun gücləndirilməsi, tolerant dəyərlərin təbliği və digər istiqamətlərdə ardıcıl və müstəsna xidmətlər göstərmişdir. Onun təşkilatçılığı ilə keçirilən "Eurovision-2012" mahnı müsabiqəsi, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və digər mötəbər beynəlxalq tədbirlər müasir tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır. Prezident İlham Əliyevin "Mən dəfələrlə bəyan etmişəm və bunu həyat və atılan addımlar da təsdiqləyir ki, Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır" sözləri Azərbaycan dövlətinin sosial siyasətinin ildən-ilə güclənməsində öz təsdiqini tapır. Heydər Əliyev Fondu tərəfindən icra olunan sosial əhəmiyyətli layihələr də bu siyasətin uğurlu icrasına dəyərli töhfələr verməklə ölkədə sosial müdafiə siyasətinin genişləndirilməsinə xidmət edir.

Fondun dəstəyi ilə Bakının Yeni Günəşli yaşayış massivində ən müasir standartlara uyğun tikilmiş və avadanlıqla təchiz olunmuş Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsi sağlamlıq imkanları məhdud uşaqlar üçün tibbi-sosial reabilitasiya imkanlarının artırılmasında mühüm rol oynayır. Burada dünya psixoterapiya praktikasında səmərəliliyi ilə seçilən qum terapiyası, artterapiya üsullarından, müalicəvi vannalardan və s. geniş istifadə şəraitində, sosial mühit oriyentasiyası tədrisi aparılmaqla hər il 400 nəfərdən çox uşağa reabilitasiya xidmətləri göstərilir.

Sağlamlıq imkanları məhdud uşaqlara qayğının artırılması yönündə daha bir mühüm layihə kimi fondun "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində nazirliyin 1 saylı və 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisələrində ən müasir tələblərə uyğun stasionar sosial xidmət və reabilitasiya şəraiti yaradılıb. Bu gün nümunəvi dövlət uşaq müəssisələri kimi seçilən hər iki müəssisədə 330-dan çox uşaq müəyyən edilmiş rejim və fərdi iş planı əsasında abilitasiya və reabilitasiya yönümlü xidmətlərlə təmin edilir. Eyni zamanda, Heydər Əliyev Fondunun dəstəyi ilə görmə qabiliyyəti məhdud uşaqlar üçün respublika internat məktəbində müvafiq mərkəzin, Naxçıvan, Gəncə və Yevlaxda məhdud fiziki imkanlı insanlar üçün regional informasiya mərkəzlərinin yaradılması, fiziki məhdudiyyətli insanların, o cümlədən sağlamlıq imkanları məhdud gənclərin Peşə Reabilitasiya Mərkəzində yaradıcılıq imkanlarının dəstəklənməsi üçün aparılan işlər mühüm sosial əhəmiyyət kəsb edir. Fondun "2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsi çərçivəsində həmin əsgər və zabitlərimizin dünyada müasir protez istehsalçıları kimi tanınan şirkətlərin yüksək texnologiyalı məhsulları ilə təmin edilməsi isə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi uğrunda döyüşlərdə sağlamlığını itirmiş insanlara xüsusi qayğı göstərilməsi sahəsində aparılan işlərə dəyərli töhfə oldu.

Ötən dövrdə dövlət başçısının tapşırıqlarına uyğun olaraq, ardıcıl şəkildə reallaşdırılan kompleks tədbirlər əmək resurslarının məşğulluq imkanlarının artırılmasında mühüm rol oynamaqla, hər il 100-120 min işçi qüvvəsinin daxil olduğu əmək bazarında sabitliyin təmin edilməsinə imkan verib. Təkcə bu ilin 9 ayında 44 783 nəfər münasib işlərlə təmin olunub, 865 nəfər ödənişli ictimai işlərə göndərilib. Bölgələrdə mütəmadi olaraq əmək yarmarkaları, ali təhsil müəssisələrində "Karyerada ilk addım" devizi altında aktiv məşğulluq tədbirləri təşkil olunur. Gənclərin əmək bazarının tələblərinə uyğun peşə və ixtisas seçiminə dəstək məqsədilə 79,8 min gəncə əmək bazarında peşə və ixtisaslara olan tələbat, məşğulluq xidmətləri barədə məlumatlar, peşəyönümü məsləhətləri verilib.

Prezident İlham Əliyevin tapşırıqları ilə başlanılan özünüməşğulluq proqramı sosial cəhətdən həssas əhali qruplarının müdafiəsinə, onların rifah halının yaxşılaşdırılmasına yönələn siyasətdə passiv tədbirlərdən aktiv tədbirlərə keçidin təmin olunmasına imkan verib. Cənab Prezident Nazirlər Kabinetinin 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında deyib: "Özünüməşğulluq proqramı işsizliyin, xüsusilə bölgələrdə işsizliyin, yoxsulluğun aradan qaldırılması üçün çox önəmli bir vasitə, alət olacaq. Eyni zamanda, bu gün dövlətdən sosial yardım alan ailələr dövlət tərəfindən, dövlət dəstəyi ilə onlara lazımi vəsait veriləndən sonra öz həyatlarını özləri quracaqlar və öz maliyyə imkanlarını böyük dərəcədə artırmış olacaqlar".

Dövlət başçısının tapşırığına uyğun olaraq, 2018-ci ildə 7 min civarında insanın bu proqramda iştirakı və ailə təsərrüfatlarını yaratmaları planlaşdırılıb. Bu il proqrama cəlb olunmaq üçün müraciət edənlərdən 1 oktyabr tarixinə artıq 7303 nəfəri təlim kurslarına göndərilib və bu proses davam etdirilir. Kursları bitirənlərdən isə artıq 5855 nəfərin biznes planı qiymətləndirmə zamanı uğurlu hesab edilib (yaxın günlərdə qalan 378 nəfərin də qiymətləndirmə prosesi yekunlaşacaq). Beləliklə, oktyabr ayının 11-dən başlayaraq 2018-ci il üzrə özünüməşğulluq proqramına cəlb olunmuş şəxslərin aktivlərlə (mal və materiallarla) təmin olunmasına başlanılıb.

Ümumilikdə bu il 1000 nəfərdən çox əlilliyi olan şəxsin özünüməşğulluq proqramında iştirakı gözlənilir. Proqrama cəlb olunanlardan 1255 nəfərini məcburi köçkünlər, 158 nəfərini şəhid ailələrindən olanlar, 1026 nəfərini gənclər, 816 nəfərini ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri, 388 nəfərini sağlamlıq imkanları məhdud uşağı olan valideynlər, 65 nəfərini penitensiar müəssisələrdə cəza çəkməkdən azad olunanlar və s. təşkil edib. Planımız növbəti illərdə bu proqrama cəlb olunanların sayını cari ildəkinə nisbətən daha da artırmaqdır.

Özünüməşğulluq proqramının icrası sahəsində də Heydər Əliyev Fondu öz fəal dəstəyini göstərir. Fondun "Regional İnkişaf" İctimai Birliyi ilə 16 iyul 2018-ci il tarixdə özünüməşğulluq proqramının icrası sahəsində əməkdaşlığa dair imzalanan memoranduma əsasən, ictimai birlik özünüməşğulluq proqramı çərçivəsində 125 ailənin intensiv meyvə bağlarının, tərəvəz və bostançılıq təsərrüfatlarının yaradılmasına öz dəstəyini verir. Hesab edirik ki, bu, özünüməşğulluq proqramının icrası sahəsində yaxşı bir əməkdaşlıq nümunəsidir.

Məşğulluq imkanlarının artırılmasında xüsusi önəm kəsb edən tədbirlərdən biri də işsiz və işaxtaran vətəndaşlar üçün əmək bazarının tələblərinə uyğun peşə hazırlığı və əlavə təhsil kurslarının təşkil edilməsidir. Bu ilin 9 ayında Dövlət Məşğulluq Xidməti tərəfindən 1923 nəfər peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb edilib. Həmin kurslar Xidmətin tabeliyindəki Bakı, Göyçay və Naxçıvan peşə tədrisi mərkəzlərində, eyni zamanda ayrı-ayrı müvafiq tədris bazalarında təşkil olunur. Məqsədimiz peşə tədrisi mərkəzləri şəbəkəsini ölkəmizin bölgələri üzrə genişləndirməkdir. Artıq bu istiqamətdə addım kimi Gəncə şəhərində də Regional Peşə Tədrisi Mərkəzi yaradılır və o, yaxın vaxtlarda istifadəyə veriləcək.

Eyni zamanda, ixtisaslı kadr hazırlığının əmək bazarına uyğunlaşdırılmasında strateji məşğulluq sahələrinin müəyyən edilməsi və kadr tələbatının proqnozlaşdırılması üçün təkmil sistemin, eləcə də Avropa Təlim Fondunun ekspert dəstəyi ilə əmək bazarının monitorinqi və proqnozlaşdırılması üzrə Milli Observatoriyanın yaradılması işləri davam etdirilir. Əmək bazarının tələbləri və beynəlxalq standartlar səviyyəsində kadr hazırlığının təşkil olunması və işçi qüvvəsinin keyfiyyətinin artırılması üçün son illər 289 peşə və 63 kvalifikasiya standartı hazırlanaraq istifadəyə verilib. Ümumilikdə təqribən 900-ə yaxın peşə standartının hazırlanması nəzərdə tutulur. Bu sahədə normativ hüquqi bazanın yaradılması məqsədilə nazirlik peşə standartlarının hazırlanması, təsdiqi və tətbiqi ilə bağlı normativ sənədlər paketinin formalaşdırılması üçün zəruri layihələri hazırlayaraq aidiyyəti dövlət orqanlarına razılaşdırmaq üçün təqdim edib.

*Sonda bir daha qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən ölkədə həyat səviyyəsinin yüksəldilməsi istiqamətində aparılan uğurlu siyasət əhalinin sosial müdafiəsinin güclənməsinə, sosial cəhətdən həssas əhali qruplarına qayğının davamlı olaraq artırılmasına, dövlət sosial xidmətlərinin təkmilləşməsinə geniş imkanlar açır və nazirliyin kollektivi bu sahədə dəyərli töhfələrini vermək üçün işgüzar ruhda səylərini daim artıracaqdır.*

**Sahil BABAYEV,**
***Azərbaycan Respublikasının***
***əmək və əhalinin sosial müdafiəsi naziri***

# “CanSat Azərbaycan 2018” müsabiqəsinin qalibi Milli Aviasiya Akademiyasının komandası olub





Oktyabrın 16-da Milli Aviasiya Akademiyasında “CanSat Azərbaycan 2018” model peyk müsabiqəsinin qaliblərinin mükafatlandırma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, müsabiqənin qalibi Milli Aviasiya Akademiyasının “Envi_Sat” komandası olub. İkinci yerin sahibi Bakı Ali Neft Məktəbinin “Interstellar”, üçüncü yeri isə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının “MS_U_FO” və Bakı Mühəndislik Universitetinin “Rodimus” komandaları bölüşüb.




Tədbir iştirakçıları əvvəlcə komandalar tərəfindən hazırlanan peyk modellərinin sərgisi ilə tanış olublar.

Mərasimdə Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev “CanSat Azərbaycan 2018” müsabiqəsinin Azərbaycanda keçirilməsinin vacibliyini vurğulayıb və bu tədbirin gənclərin kosmik texnologiyalar sahəsinə marağının artırılmasına xidmət etdiyini söyləyib. O həmçinin müsabiqənin finalında iştirak edən hər bir komandanın qalib olduğunu və onların Azərbaycanın ilk “CanSat” müsabiqəsinin tarixinə adlarını böyük hərflərlə yazdıqlarını bildirib.

Azərbaycan Respublikası Kosmik Məsələlər üzrə Şuranın həmsədri, Milli Aviasiya Akademiyasının aerokosmik məsələlər üzrə elmi məsləhətçisi, Rusiya Elmlər Akademiyasının akademiki Roald Saqdeyev müsabiqənin tələbələrin müvafiq sahədə bacarıqlarını nümayiş etdirmələri baxımından əhəmiyyətini vurğulayıb. “Bu müsabiqə ölkənin milli kosmik sənayesində innovasiyaların tətbiq edilməsi və bu sahədə yerli kadrların hazırlanması baxımından xüsusi önəm daşıyır. Növbəti illərdə “CanSat Azərbaycan” müsabiqəsi davamlı olaraq keçiriləcək və regional yarışa çevriləcək” - deyə R.Saqdeyev diqqətə çatdırıb.

Təhsil naziri Ceyhun Bayramov bildirib ki, müsabiqə qalibləri gələcəkdə ölkəmizi beynəlxalq yarışlarda layiqincə təmsil edəcəklər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən insan kapitalının inkişafına göstərilən yüksək diqqət və qayğı öz müsbət nəticələrini verməkdədir. Uğurla reallaşdırılan düşünülmüş dövlət siyasəti nəticəsində Azərbaycanın adı kosmik sənayesi olan azsaylı ölkələrin siyahısına daxil edilib. Ölkəmizin üçüncü peykinin orbitə çıxarılması Azərbaycanın dünya kosmik sənayesindəki mövqeyinin daha da möhkəmləndirilməsi baxımından tarixi hadisədir.

“Azərkosmos” ASC-nin sədri Rəşad Nəbiyev diqqətə çatdırıb ki, “CanSat Azərbaycan-2018” müsabiqəsinin əsas məqsədi ölkədə tələbə peyki layihələrinə marağın artırılması, respublikanın beynəlxalq analoji müsabiqələrdə daha çox və təcrübəli komandalarla təmsil olunması və bununla, milli peyk sənayesinin stimullaşdırılması, gələcəkdə nano və digər real peyklərin məhz yerli mütəxəssislər tərəfindən Azərbaycanda hazırlanması üçün bacarıq və vərdişlərin əldə edilməsinə nail olmaqdır.

Vurğulanıb ki, “Azərkosmos” ASC peyklərin idarə olunması və peyk xidmətlərinin təqdim edilməsi ilə yanaşı, milli kosmik sənayedə innovasiyaların tətbiqi və ölkəmizin bu sahədə yerli kadrların hazırlanması istiqamətində işlər aparır. “CanSat Azərbaycan” müsabiqəsi də məhz bu missiyanın bariz nümunəsidir. Müsabiqədə tələbələr ali məktəbdə aldıqları nəzəri biliklərlə praktik bacarıqların sintezini model peyk hazırlayarkən real iş şəraitində görüblər. Həmçinin müsabiqə tələbələrdə kosmik sahəyə marağın yaradılmasına, bu istiqamətdə tədqiqat işlərinə və gələcəkdə bu kimi praktik layihələrdə iştirak etmələrinə stimul olub.

Sonra qalib komandalar mükafatlandırılıb, müsabiqədə iştirak edən tələbələrə göstərdikləri dəstəyə görə yeddi universitetin rəhbərliyinə təşəkkürnamə təqdim olunub.

Tədbir Milli Aviasiya Akademiyasının təqdim etdiyi bədii proqramla başa çatıb.

# Heydər Əliyev Fondu Sankt-Peterburqdakı Nizami Gəncəvi bağında bərpa işləri aparıb

Heydər Əliyev Fondu Rusiyanın Sankt-Peterburq şəhərində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyan bağın ərazisində yerli şəhər administrasiyası ilə birgə yenidənqurma və abadlaşma işləri aparıb.

Bu barədə AZƏRTAC-a fonddan məlumat verilib.

Qeyd edək ki, şəhərin sərt iqlim şəraiti dahi şairin əsərlərindən fraqmentlərin təsvir olunduğu pannolara və onun abidəsinə öz təsirini göstərib. Bərpa işləri zamanı pannoların üzərində zəruri işlər aparılıb, qızıl suyu ilə yazılar və abidə bərpa olunub, ətraf ərazi abadlaşdırılıb.




Dünyanın mədəniyyət mərkəzlərindən sayılan Sankt-Peterburqda Nizami Gəncəvinin abidəsi 2002-ci ildə açılıb. Nizaminin obrazını Azərbaycan heykəltəraşı Qəyruş Babayev yaradıb. 2011-ci ildə isə şairin anadan olmasının 870 illiyi ilə əlaqədar Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin himayədarlığı ilə bağda Nizami Gəncəvinin əsərlərindən fraqmentlərin təsvir olunduğu pannolar qurulub. Sankt-Peterburq qubernatorunun qərarı ilə bağa Nizami Gəncəvinin adı verilib.



# Azərbaycan Avropa Şurasına üzv ölkələrin idman nazirlərinin toplantısında təmsil olunur

Tbilisidə Avropa Şurasının üzvü olan ölkələrin idmana məsul nazirlərinin 15-ci toplantısı işə başlayıb.

AZƏRTAC xəbər verir ki, “İdmanda insan hüquqlarının qorunması: Öhdəliklər və məsuliyyətin bölünməsi” devizi altında keçirilən toplantıya 320-dən çox iştirakçı qatılıb. Tədbirdə Azərbaycanı gənclər və idman naziri Azad Rəhimov təmsil edir.



Toplantıda qeyd edilib ki, əsas məqam idmanda iştirak və mövcudluğun insan hüquqları vasitəsilə təbliğ olunmasıdır. Tədbirdə idmançıların hüquqlarının qorunması, dopinqdən istifadənin qarşısının alınması, ictimaiyyətin hər bir təbəqəsindən olan vətəndaşların idmanla fəal məşğul olmaları üçün daha geniş imkanların yaradılması məsələləri müzakirə edilib. Bununla yanaşı, idmanda insan haqlarının müdafiəsi, məsuliyyət və ümumi öhdəliklər, idmanda korrupsiyaya qarşı mübarizədə fəallığın artırılması da müzakirəyə çıxarılan əsas məsələlərdən olub.

Tədbirin açılışında Avropa Şurası baş katibinin müavini xanım Qabriela Battaini-Draqoni, Gürcüstanın Baş naziri Mamuka Baxtadze, Avropa Şurasının Nazirlər Komitəsinin rəhbərliyini təmsil edən, Xorvatiyanın İdmana dair Mərkəzi Dövlət Ofisinin baş katibi xanım Yaniça Kosteliç, Avropa Olimpiya Komitələrinin prezidenti Yanez Koçiyançiç və digər rəsmilər iştirak ediblər.

# Azərbaycanda idmançıların hüquqları hərtərəfli müdafiə edilir

“Azərbaycanda idmançıların hüquqları hərtərəfli müdafiə olunur. Ölkəmizdə idmanda korrupsiya anlayışı da yoxdur”.

AZƏRTAC xəbər verir ki, bunu Avropa Şurasına üzv ölkələrin idmandan məsul nazirlərinin Tbilisidə keçirilən 15-ci konfransında iştirak edən gənclər və idman naziri Azad Rəhimov jurnalistlərə müsahibəsində söyləyib.

“Bununla belə, Azərbaycan tərəfi konfrans çərçivəsində bu mövzularda müzakirələrdə iştirak etməyə hazırdır. Düşünürəm ki, hər bir müzakirə idmanın gələcəyinə və bu sahədəki proseslərin inkişafına böyük təkan verir - deyə A.Rəhimov vurğulayıb.

Nazir bildirib ki, Avropa Şurasına üzv ölkələrin idmandan məsul nazirlərinin idmanda korrupsiya və danışılmış oyunlarla bağlı ilk konfransı on il əvvəl Bakıda keçirilib: “Çox şadıq ki, Avropa Şurasının bu platforması məhz Bakıdan başlayıb. Azərbaycan Avropa Şurasının idmanla bağlı üç konvensiyasına qoşulub. Bunlardan da ən əsası EPAS-dır (Avropa Şurasının İdman üzrə Genişləndirilmiş Hissəvi Sazişi). Azərbaycan beş ölkə arasında bu sənədə qoşulan birinci ölkə olub”.

# Siyasi Sənədlər Arxivində “Müstəqilliyə gedən yol - tarixi həqiqətlər prizmasında” mövzusunda “dəyirmi masa” keçirilib

Oktyabrın 16-da Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivində “Müstəqilliyə gedən yol - tarixi həqiqətlər prizmasında” mövzusunda “dəyirmi masa” keçirilib.



AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Siyasi Sənədlər Arxivinin sərgisində qorunan qiymətli sənədlərlə və nadir kitablarla tanış olublar.

Siyasi Sənədlər Arxivinin direktoru Elmira Ələkbərova çıxış edərək bildirib ki, 2018-ci il Azərbaycan xalqının yaddaşına tarixi əhəmiyyətli yubileylərlə həkk olunacaq. Bunlar böyük təntənə ilə qeyd olunan Azərbaycan Ordusunun, Bakının Qafqaz İslam Ordusu tərəfindən bolşevik-daşnak qüvvələrindən azad edilməsinin, Azərbaycan parlamentinin və ən önəmlisi, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyidir. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı və çağdaş Azərbaycan tarixinə demokratik dövlətçilik ənənəsini gətirdi. 1998-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 80 illiyi ilə bağlı ümummilli lider Heydər Əliyevin imzaladığı sərəncamda deyilirdi: “Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq, bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir...1991-ci ildə dövlət müstəqilliyini bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli fəaliyyətinin zəngin ənənələrindən istifadə etmiş və bu tarixi varislik üzərində müstəqil Azərbaycan dövlətini yaratmışdır”.

Diqqətə çatdırılıb ki, hələ 1993-cü ilin dekabrında ulu öndər Heydər Əliyev ilk rəsmi səfərini etdiyi Fransada Əlimərdan bəy Topçubaşovun məzarını ziyarət edib, onun xatirəsinə ehtiramını bildirib. Ulu öndər mərhumun məzarının üzərində abidənin ucaldılması ilə bağlı dövlət vəsaitinin ayrılmasına göstəriş verib.

Prezident İlham Əliyevin imzaladığı “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında” 16 may 2017-ci il tarixli Sərəncamda müasir müstəqil Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olduğu vurğulanır. Sərəncamda Şərqin ilk demokratik müsəlman dövlətinin fəaliyyəti də öz əksini tapıb. Cari il yanvarın 10-da isə Prezident İlham Əliyev 2018-ci ilin Azərbaycan Respublikasında “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilməsi haqqında sərəncam imzalayıb. Bu sərəncamda da Azərbaycan Xalq Cümhuriyyətinə xüsusi dəyər verilib. Eyni zamanda, Cümhuriyyətin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkə daxilində və xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Bu sərəncamla bağlı olaraq Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi xarici ölkələrin arxivlərindən Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini əks etdirən sənədləri aşkar edib gətirərək fondlarını zənginləşdirib.

Elmira Ələkbərova Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin əsas məqamlarına toxunub. Qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti kifayət qədər mürəkkəb regional və qlobal bir şəraitdə yaranıb. Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları Azərbaycanın adını beynəlxalq aləmdə tanıtmağa, dövlətin təhlükəsizliyini təmin etməyə çalışıblar. Cümhuriyyət qurucuları dövlətçilik təcrübələri olmadığı halda, xarici siyasət məktəbinin formalaşmasına xüsusi önəm veriblər. Onlar həm xarici siyasətin formalaşdırılması, həm də xarici dövlətlərlə əlaqələrin qurulması üçün böyük səy göstəriblər.

Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi o dövrdə yaranmış müstəqil qonşu dövlətlər ilə dinc münasibətlər saxlamaq, regionda sülh və əməkdaşlıq mühiti formalaşdırmaq üçün əlindən gələni edib. Bu çərçivədə 1919-cu il iyunun 16-da Gürcüstan ilə ittifaq bağlayıb, Dağlılar Respublikası ilə əməkdaşlığı dərinləşdirib, hətta ümumi “Qafqaz evi” ideyasını reallaşdırmağa çalışıb. Lakin Ermənistan tərəfinin pozuculuq mövqeyi “Qafqaz evi” ideyasının reallaşmasına imkan verməyib.

Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi Birinci Dünya müharibəsinin iştirakçısı olan böyük dövlətlərin öz aralarında apardıqları müzakirələrdə, imzaladıqları sənədlərdə və yürütdükləri siyasətdə Cümhuriyyətin suverenliyini pozan addımlara dəfələrlə qəti etirazını bildirib, Azərbaycanın adını və müstəqil Cümhuriyyəti qorumaq üçün xüsusi siyasət yürütmək məcburiyyətində qalıb. Məhz bu səbəbdən Cümhuriyyət parlamenti 1918-ci il dekabrın 28-də parlamentin sədri Əlimərdan bəy Topçubaşovun başçılığı ilə Paris Sülh Konfransına xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul edib. Topçubaşovun başçılıq etdiyi nümayəndə heyətinin xüsusi səyləri nəticəsində Paris Sülh Konfransının Versal Ali Şurası 1920-ci il yanvarın 11-də Azərbaycanın müstəqilliyini de-fakto tanıyıb. Beləcə, Azərbaycan Xalq Cümhuriyyəti böyük dövlətlər tərəfindən rəsmi şəkildə tanınan, Qərb ictimai fikrində qəbul edilən ilk türk-müsəlman dövləti olub. Azərbaycan nümayəndələri müttəfiqlərin Ali Şurasının London və San-Remo konfranslarında iştirak edib, Millətlər Cəmiyyətinə və digər beynəlxalq təşkilatlara üzv olmağa cəhd göstərib, nəticədə 1920-ci ilin ilk aylarında Bakıda iyirmidən çox dövlətin diplomatik nümayəndəlikləri təsis edilib.

Bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra da Azərbaycan Xalq Cümhuriyyətinin liderləri xarici siyasəti davam etdirməyə çalışıblar. Belə ki, Azərbaycan parlamentinin sədri kimi Əlimərdan bəy Topçubaşov 1920-1923-cü illərdə Millətlər Cəmiyyətinin Cenevrədə keçirilən toplantılarında iştirak edib. Eləcə də Azərbaycanın Paris Sülh Konfransındakı nümayəndə heyətinin başçısı kimi o, 1920-1921-ci illərdə Versal Ali Şurasının rəhbərliyinə dəfələrlə müraciətlər ünvanlayıb.

Direktor qeyd edib ki, məhz 1991-ci ilin oktyabrında müstəqilliyini bərpa edən Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq dünya siyasətində yenidən öz yerini tutmağa başlayıb. Müasir dünyanın reallıqları fonunda 1918-1920-ci illərin tarixi təcrübəsi bir sıra məqamlarda bu gün də öz aktuallığını saxlayır.

Bu gün Azərbaycan Respublikası müasir beynəlxalq münasibətlər sisteminə daxil olub, dünya xalqları ailəsinin bərabərhüquqlu üzvünə çevrilib, böyük transmilli layihələrin həyata keçirildiyi ölkə olaraq beynəlxalq aləmdə öz layiqli yerini tutub. Bununla da xalqımızın tarixi ənənələri, milli dəyərləri əsas götürülməklə, müasir beynəlxalq münasibətlərin başlıca meyilləri nəzərə alınmaqla XXI əsrin əvvəllərində Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilib.

“Dəyirmi masa”da çıxış edən Bakı Dövlət Universitetinin mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, tarix üzrə elmlər doktoru, professor Anar İsgəndərli “Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan tarixində yeri” mövzusunda məruzə ilə çıxış edib. O bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin ən böyük xidməti coğrafi məfhum olan Azərbaycan ifadəsinin siyasi məfhuma çevrilməsi, dövlətin Azərbaycan adlandırılması idi. Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa çalışırdı. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra onun bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Sonra Prezidentin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin elmi katibi, tarix üzrə elmlər doktoru Həcər Verdiyeva Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivində mühafizə olunan sənədlər əsasında “Azərbaycan Xalq Cümhuriyyəti ölkənin ərazi bütövlüyü uğrunda mübarizədə” mövzusunda məruzə ilə çıxış edib. O diqqətə çatdırıb ki, 1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal Bəyannaməsi qəbul olundu. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Qeyd edilib ki, Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk günlərdən özünün ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını qorumaq üçün fəal mübarizə aparıb. Azərbaycan hökumətinin ən başlıca vəzifəsi Dağlıq Qarabağda erməni separatizmini ləğv etmək idi. XIX əsrin sonlarından başlayaraq erməni millətçiləri “böyük Ermənistan” yaratmaq ideyasını həyata keçirmək üçün geniş fəaliyyətə başlamış, Azərbaycanın əzəli torpaqları olan Qarabağ, Naxçıvan və Zəngəzur bölgələrinə yiyələnmək üçün cəhdlər göstərmişlər. Bu istiqamətdə onların ilk hədəfi Zəngəzuru və Qarabağı ələ keçirmək idi. Ancaq Azərbaycan hökumətinin qəti mövqeyi ermənilərin planlarının gerçəkləşməsinə imkan vermədi.

“Dəyirmi masa”da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tarix kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Firdovsiyə Əhmədova “Azərbaycan Xalq Cümhuriyyətinin dini-etnik tənzimləmə siyasəti”, Siyasi Sənədlər Arxivinin elmi araşdırmalar və elmi kitabxana şöbəsinin müdiri, tarix üzrə elmlər doktoru Lalə Hüseynova “Bakı Dövlət Universitetinin yaranma tarixindən”, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Azərbaycanın sovet dövrü tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent İlqar Niftəliyev “Ermənistan-Azərbaycan ərazi münaqişəsi (Britaniya missiyasının nümayəndəsi Oliver Uordropun sənədləri əsasında)”, Milli Azərbaycan Tarixi Muzeyinin elmi katibi, tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Cabbarov “Azərbaycan Cümhuriyyətinin sovet Rusiyası ilə münasibətlərində neft amili”, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının əməkdaşı, tarix üzrə fəlsəfə doktoru, dosent Nigar Gözəlova “Ermənistan-Azərbaycan münasibətlərində Qarabağ məsələsi (1918-1920)” mövzularında məruzələrlə çıxış ediblər.

Tədbirdə həmçinin AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun sektor müdiri, tarix üzrə fəlsəfə doktoru Təvəkkül Əliyev, AMEA Hüquq və İnsan Haqları İnstitutunun böyük elmi işçisi, tarixçi-tədqiqatçı Rizvan Hüseynov erməni millətçilərinin Azərbaycanın maddi-mədəni irsinə qarşı apardıqları əsassız iddiaları dəlillər əsasında auditoriyanın diqqətinə çatdırıblar.

Siyasi Sənədlər Arxivinin məsləhətçisi, filologiya üzrə fəlsəfə doktoru Lalə Osmanqızı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Əzizə Nəzərli, Bakı Dövlət Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru Rövşən Hətəmov, AMEA Hüquq və İnsan Haqları İnstitutunun böyük elmi işçisi Rizvan Hüseynov Azərbaycanın istiqlaliyyətə gedən keşməkeşli yollarından danışıb, ölkəmizin reallıqlarına diqqəti cəlb ediblər.

Tədbir məruzələrlə bağlı maraqlı müzakirələrlə davam edib.

# Paşinyan son savaş üçün istefa verdi

## Ermənistanda dekabrda keçiriləcək növbədənkənar parlament seçkiləri ölkədə yeni inqilabi ab-hava yaradır

*Əvvəli 1-ci səh.*

Nəzərə almaq lazımdır ki, 2008-ci il hadisələrinin ən başlıca iştirakçılarından və həmin iğtişaşların təşkilatçılarından biri də elə indiki baş nazir olub. Siyasi haqq-hesab aparılması və tarixi özünə daha sərfəli kontekstdə yenidən yazmaq cəhdləri - Paşinyanın bu məsələdə motivasiyası aydındır. Lakin parlament seçkiləri nəticəsində sadəcə, bir monopoliya digəri ilə əvəzlənəcək”.

Ermənistan mediası yazır ki, artıq ölkə parlamenti buraxılıb. İstefa verən Nikol Paşinyan isə növbədənkənar parlament seçkilərini dekabrın 9-na təyin edib. Erməni siyasi şərhçi Aram Amatuni yazır ki, Ermənistan üçün yeni dövr başlayır: “Lakin Yerevanda siyasi çaxnaşma, qarşıdurma və gərginlik səngiməK bilmir. Paşinyan indiyə qədər yaxşı gəlib, amma onun rəqibləri bundan sonrakı dövrdə daha sərt mövqe sərgiləyə bilərlər. Hər şey yaxın aylarda məlum olacaq”.

Hesab edilir ki, Paşiynan bundan sonra düzgün xarici siyasət aparmasa, ilk növbədə Azərbaycanla münasibətləri normalaşdırmasa, onda Ermənistan yenə iflasa uğrayacaq.

### Ermənistanın növbəti uğursuzluğu

Ermənistanın işğal siyasətinin bu gün tam şəkildə faş edilməsi artıq bu ölkənin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqe və fikirlərinin beynəlxalq ictimaiyyət tərəfindən rədd edilməsi ilə müşayiət edilməkdədir. İndi rəsmi Yerevan bu vəziyyəti aradan qaldırmaq istiqamətində nə qədər cəhdlər göstərsə də durum dəyişməz qalır. Bu hal Yerevanda baş tutan Frankofoniya təşkilatının 17-ci zirvə görüşündə də özünü qabarıq büruzə verdi. Digər tərəfdən görüşdə səsləndirdiyi fikirlərlə Ermənistanın baş naziri Nikol Paşinyan qeyri-ciddi imicini daha da möhkəmləndirib.

Məsələ bundadır ki, Paşinyan Frankofoniya təşkilatının açılışında etdiyi çıxışında Dağlıq Qarabağ münaqişəsinə dair yalan və həqiqətdən uzaq fikirlər səsləndirib. O deyib ki, Qarabağ erməniləri münaqişənin həllində tərəf qismində iştirak etməlidirlər. Halbuki, bu cür ritorika Düşənbədə baş tutmuş söhbətin ruhuna qətiyyən uyğun gəlmir. Çünki burada danışıqlarda tərəf qismində yalnız Azərbaycan və Ermənistanın çıxış etməsi razılaşdırılıb.

Paşinyanın özünü belə aparması, düşünülməmiş sözləri çox güman ki, parlament seçkilərini udmağa yönəlmiş fəaliyyətdir. Digər tərəfdən Ermənistan baş nazirinin belə sayıqlamaları onun siyasətçi imicini dünya siyasi səhnəsində heçə endirir. Bu fonda Frankofoniya təşkilatının 17-ci zirvə görüşündə Ermənistanın istəyinə nail ola bilməməsi də tamamilə təbii qarşılana bilər.

Qeyd edək ki, Frankofoniya təşkilatının 17-ci zirvə görüşündə “Böhran vəziyyətləri, böhrandan çıxış və Frankofon ərazisində sülh quruculuğu” adlı qətnamə qəbul edilib. Bu qətnaməyə Dağlıq Qarabağ münaqişəsinə dair bənd daxil olunub. Burada ATƏT-in Minsk Qrupunun həmsədrlərinin səylərinə tam dəstək əks olunur, sülh şəraitinin təşviq edilməsinə və öncəki razılıqlara əməl edilməsinə çağırılır, eləcə də münaqişənin Helsinki Yekun Aktının fundamental prinsipləri, o cümlədən gücdən istifadə etməmək və hədələməmək, ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etmə prinsipi əsasında sülh yolu ilə həllini nəzərdə tutan danışıqlar prosesinə yenidən başlanılması ifadə olunur.

### Yerevan sammitinin iflası

Helsinki Yekun Aktına uyğun olaraq, Azərbaycana qarşı təcavüzkar siyasət həyata keçirdiyinə, Dağlıq Qarabağ və ətraf rayonlar da daxil olmaqla Azərbaycan ərazilərini hərbi işğal altında saxladığına görə güc tətbiq etmək məsuliyyəti Ermənistanın üzərinə düşür. Helsinki Yekun Aktı bu xüsusda açıq şəkildə bəyan edir ki, dövlətlər qarşılıqlı münasibətlərində, ümumiyyətlə beynəlxalq münasibətlərdə hər hansı dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı hədələməkdən və güc tətbiq etməkdən çəkinməlidir.

Xalqların öz müqəddəratını təyin etməsi prinsipinə gəldikdə isə Helsinki Yekun Aktında bu barədə fikir aydın şəkildə əks olunub: “İştirakçı dövlətlər xalqların bərabər hüquqlarını və öz müqəddəratını təyin etməsi hüququnu nəzərə alarkən hər zaman BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə və dövlətlərin ərazi bütövlüyü daxil olmaqla beynəlxalq hüququn müvafiq normalarına uyğun olaraq hörmət etməlidirlər”.

Bütün bunlar o deməkdir ki, dövlətlərin ərazi bütövlüyünün pozulması yolverilməzdir. Məhz belə vəziyyətdə Ermənistanın Frankofoniya təşkilatından suiistifadə etmək səyləri də puç olub. Beləliklə, Ermənistanın uğursuz şəkildə beynəlxalq ictimaiyyəti aldatmaq səyləri yenə iflasa uğrayıb.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# *“Foreign Policy”:* Ermənistanda “inqilabdan sonrakı” şadyanalıq başa çatıb

ABŞ-da nəşr olunan “Foreign Policy” jurnalında Ermənistanda korrupsiya və siyasi qarşıdurmalar barədə məqalə dərc edilib.

AZƏRTAC-ın məlumatına görə, müəllif Maksim Edvards “Ermənistanda “inqilabdan sonrakı” şadyanalıq başa çatıb” adlı məqaləsində yazır ki, bu ilin iyununda Ermənistan Milli Təhlükəsizlik Xidmətinin agentləri Manvel Qriqoryanın Eçmiədzin şəhərinin hüdudlarından kənarda yerləşən mülkünə baxış keçiriblər. Silahlar və retro avtomobil kolleksiyası ilə yanaşı, həmçinin Ermənistanın təcavüz etdiyi Azərbaycan ərazilərində qeyri-qanuni xidmətdə olan erməni əsgərlərinin ərzaq payları aşkar edilib. Bildirilir ki, mülk sahibi bu hərbi payları və ərzağı öz şəxsi zooparkındakı heyvanları yemləmək üçün istifadə edirmiş. Müəllif qeyd edir ki,




30 faizi yoxsulluq həddindən də aşağı yaşayan erməni xalqı üçün bu, bir şok oldu. Manvel Qriqoryan hərbçi və 1999-cu ildən Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın Respublikaçılar partiyasından seçilmiş deputat idi.

Nikol Paşinyanın hakimiyyətə gəlişindən sonra Sarkisyan klanı üzvlərinin, o cümlədən Sarkisyanın qardaşının və cangüdəninin həbslərinə başlanılıb. Edvards qeyd edir ki, 2008-ci il 1 mart hadisələri ilə bağlı sabiq prezident Robert Koçaryana qarşı da cinayət işi qaldırılıb. O vaxt erməni polisi Yerevanın mərkəzində saxta prezident seçkilərinə qarşı etiraz edən dinc əhaliyə divan tutmuşdu. Bu seçkilər nəticəsində Sarkisyan hakimiyyətə gəlmişdi. Həmin gün 10 nəfər öldürülüb.

Məqalədə Eçmiədzin şəhərinin bütün administrasiyasına və iqtisadiyyatına nəzarət edən general Qriqoryan, onun ailəsi və Ermənistanın paytaxtına 2011-ci ildən rəhbərlik edən Yerevanın meri Taron Marqaryan barədə danışılır. Müəllif, habelə Paşinyan və Respublikaçılar partiyası arasında ölkə parlamentində davam edən qarşıdurmadan bəhs edib.

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 29 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# *İrəvanda Frankofoniya sammiti:* rəsmi Parisin tarixi səhvi və fransızların “həmyerliləri”

Böyük dövlətlər müstəqil xarici siyasət yeridərlər. Bunu müstəqil olan hər bir ölkə tam dərk edir. Ancaq müstəqil siyasət yeritmək qətiyyən ədalətsiz, haqsız və qeyri-obyektiv olmaq anlamına gəlməz. Üstəlik, bu “müstəqil siyasət” təcavüzkara, haqsıza arxa olmağı nəzərdə tutursa, çox zərərlidir, bütün dünya üçün təhdiddir. Frankofoniya təşkilatının 17-ci sammitinin İrəvanda keçirilməsi özlüyündə qeyri-adi deyil. Ermənistan həmişə qeyri-sabit, bir geosiyasi cəbhədən digərinə qaçmaqla xarakterizə olunan mövqe tutub. Olmasın “rusofoniya”, olsun “frankofoniya” - İrəvan üçün elə də fərq etməz. Təki danışanlar ermənipərəst olsunlar. Bu baxımdan Fransa Prezidenti 17-ci sammitdə çox fərqləndi. Onun ifadə etdiyi fikirlərin dünya siyasətinə hansı təsiri göstərəcəyi bir qədər sonra aydın olacaq. Ancaq söylənən fikirlərdə Cənubi Qafqaza aid vacib məqamlar olduğundan onların üzərində indidən geniş dayanmağa ehtiyac görürük.




### Azərbaycan-Fransa münasibətləri: Bakının cəsarətli və konstruktiv addımları

Azərbaycan müstəqillik əldə edəndən sonra ölkəmiz Fransa ilə ən yüksək səviyyədə münasibətlər qurmaq istiqamətində davamlı addımlar atıb. Ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə bu proses sistemli, ardıcıl və dərindən düşünülmüş məzmun kəsb edib. Heydər Əliyev Prezident kimi xaricə ilk rəsmi səfərini Parisə edib. Azərbaycan Prezidenti seçildikdən sonra (3 oktyabr 1993-cü il) ulu öndər Fransa Prezidenti Fransua Mitteranın dəvətini qəbul edərək bu ölkəyə gedib. Orada ümummilli liderin apardığı danışıqlar müsbət nəticə verib. Fransa Azərbaycanla əlaqələri inkişaf etdirməyin zəruriliyini dərk edib.

Prezident İlham Əliyev ulu öndərin siyasi kursunu inkişaf etdirərək Fransa ilə əlaqələrə ayrıca önəm verib. Bunu dövlət başçısının Fransaya olan səfərləri və həyata keçirilən birgə proqramlar təsdiq edir. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev də prezident seçildikdən sonra ilk xarici səfərini Fransaya edib (yanvar, 2004).

2016-cı ilə olan məlumata görə, Azərbaycanda 40-dan çox Fransa şirkəti fəaliyyət göstərir. Təbii ki, bu, son hədd deyil. Çünki dövlət başçısı İlham Əliyev Fransa ilə əlaqələrin daha da genişlənməsi istiqamətində addımlarını davam etdirir. Təkcə bu ilin yayında Prezident İlham Əliyevin Fransaya səfəri zamanı 11 fransız şirkəti ilə müxtəlif sahələri əhatə edən və 2 milyard dollar həcmində sərmayəni nəzərdə tutan müqavilələr imzalanıb.

Bununla bağlı Azərbaycan Prezidenti deyib: “Azərbaycan ilə Fransa şirkətləri arasında 2 milyard dollardan çox dəyərində müqavilələr imzalanıb. Bu müqavilələr reallaşdırıldığı təqdirdə onların həcmi daha da artacaq. Həmçinin enerji təhlükəsizliyi məsələsi müzakirə olunub, “Cənub qaz dəhlizi” layihəsinin uğurla icra edildiyi vurğulanıb. Neft-qaz sektoru, infrastruktur, nəqliyyat, kosmik sənaye, hava nəqliyyatı, metro tikintisi, hərbi-texniki sahələrdə əməkdaşlıq məsələləri də müzakirə olunub”.

Bəs bütün bunların qarşılığında rəsmi Parisin Azərbaycan siyasəti hansı məzmunda olub? Çox təəssüf ki, məsələnin bu tərəfi ilə bağlı bir sıra mənfi faktları xatırlamalı oluruq. Hər şeydən öncə, deməliyik ki, Azərbaycan müstəqil dövlət kimi heç bir ölkənin daxili işlərinə qarışmır və münasibətlərini hansısa xüsusi məqsədə görə qurmur. O cümlədən rəsmi Bakı Fransanın hansı dövlətlə necə əlaqələr yaratmalı olmasına qətiyyən qarışmaz. Lakin Azərbaycanın dövlət maraqlarına və suverenliyinə zərər verə biləcək davranışları da diqqətdən kənarda saxlaya bilməz. Fransa ilə münasibətlərdə məsələnin bu aspekti həm də ona görə daha həssasdır ki, bu ölkə ATƏT-in Minsk qrupunun üç həmsədrindən biridir. Fransa üzərinə belə bir öhdəlik götürüb ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüquq çərçivəsində və sülh yolu ilə həllində vasitəçilik edəcək. Əgər bu şərtlərdən kənara çıxılırsa, Azərbaycanın haqlı irad bildirməsinə kimsə mane ola bilməz, çünki söhbət Azərbaycanın müstəqilliyindən, ərazi bütövlüyündən və suveren dövlət kimi gələcəyindən gedir. Bu anlamda Fransa tərəfindən hansı addımlar atılıb?

Öncə qeyd edək ki, Prezident Emmanuel Makron bu ilin yanvarında Fransada yerləşən Erməni Təşkilatlarının Koordinasiya Şurası (CCAF) tərəfindən qondarma “erməni soyqırımı”nın anım mərasiminə dəvət edilərkən CCAF-ın həmsədrləri Ara Toranyan və Murad Papazyan onu Türkiyəni tənqid etməyə və Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə səfər etməyə səsləyib.

### Fransız deputatlar və merlər: işğal ərazilərinə qanunsuz səfərlər

Ancaq bununla yanaşı, Fransa parlamentinin bir sıra üzvləri və şəhər merləri Dağlıq Qarabağa səfərlər edirlər. Məsələn, Fransanın “Xalq hərəkatı uğrunda ittifaq” parlament fraksiyasının deputatı Gi Tesye Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə səfər edib və orada separatçı rejimin nümayəndələri ilə görüşlər keçirib. Bundan başqa, “Fransa-Dağlıq Qarabağ” dostluq qrupu yaradılıb. Fransa rəsmiləri Ermənistanın son 25 ildə işğalda saxladığı Dağlıq Qarabağ bölgəsinə səfərlər həyata keçiriblər. Digər heç bir dövlətin rəsmi şəxsləri bu addımı atmayıblar.

Fransanın Alforvil və Valans şəhərlərinin merləri də Dağlıq Qarabağa səfərlər ediblər. Bu, birbaşa Ermənistanın və havadarlarının Azərbaycan ərazilərində yaratdığı qondarma separatçı rejimin təşviqinə xidmət edir. Bu bağlılıqda Fransada türklərə qarşı terror aktları törədən canilərin milli qəhrəman obrazlarının yaradılması, onların adına küçə və meydanların verilməsi olduqca təəssüfedicidir. Fransa ədaləti, demokratiyanı, insan haqlarını və obyektivliyi tam itirmiş kimi görünür.

Bunlardan başqa, Fransanın ayrı-ayrı şəhərləri Dağlıq Qarabağla müqavilələr imzalayıblar. Fransız şirkətlərinin işğal edilmiş Azərbaycan ərazilərində fəaliyyəti barədə informasiyalar mövcuddur. Bu kimi proseslərin fonunda iki məqam maraq doğurur. Birincisi, Fransanın canfəşanlıq etməsinə rəğmən, Ermənistanın faktiki olaraq rəsmi Parisi gözardına almasıdır. İkincisi, Frankofoniyanın məhz Ermənistanda keçirilməsidir.

Birinci məqamla bağlı Fransanın Ermənistandakı keçmiş səfiri Anri Renonun etirafı diqqət çəkir. O deyir ki, Ermənistanda fransız dilini öyrənənlərin sayı hətta SSRİ dövründə olduğundan da aşağıya düşüb. Ermənistanla Fransa arasında əmtəə dövriyyəsi 100 milyon dollar həddini ötməyib və illik mal dövriyyəsində də heç bir artım yoxdur. Əksinə, azalma müşahidə edilir. “Orange” mobil operatoru Ermənistanın mobil operatorları bazarına daxil olsa da, sonradan səhmlərini Rusiyaya məxsus şirkətə satmağa məcbur oldu. “Karfur” dükanlar şəbəkəsi Ermənistanda reallaşa bilmədi. Bu şirkəti də Rusiya ilə sıx əməkdaşlığı olan erməni biznesmenlərindən biri ələ keçirdi. İndi İrəvanda 1-2 fransız mağazası var və Nikol Paşinyan Fransaya səfəri zamanı onları qoruyacağına söz verib. Bu, əməkdaşlıq və dostluq haqqında tipik erməni mövqeyidir.

### Makronun “ermənifoniyası”: siyasət və “həmyerli” axtarışları

Lakin Prezident Emmanuel Makron Frankofoniya üçün İrəvana gəldi. Orada, sözün düzü, bir qədər qəribə fikirlər səsləndirib. O deyib: “Mən Frankofoniyanın 17-ci sammitində iştirak etmək üçün Ermənistanda olmağıma görə şadam. Ermənistan bizim üçün çox əzizdir. Ermənilər Fransa tarixini yaradıblar, bizim, demək olar ki, yarım həmyerlilərimizdir. Ermənilər bizim tariximizin bir hissəsi və fəxr predmetidir”.

Maraqlıdır, Fransa tarixini ermənilər yaradıblarsa və fransızlarla ermənilər həmyerlidirlərsə, niyə Ermənistanı Qafqazda yaradıblar? Məlumdur ki, fransızlar qafqazlı deyillər və ermənilərlə həmyerlidirlərsə, onda ermənilər də qafqazlı deyillər. O halda belə çıxır ki, müəyyən dairələr məqsədli şəkildə ermənilərə Cənubi Qafqazda dövlət yaradıblar ki, bölgə xalqlarının başına bəla olsun. Biz cənab E.Makrona demək istərdik: Cənab Fransa Prezidenti, aparın həmyerlilərinizi bu başıbəlalı regiondan, bununla Siz qafqazlılara böyük yaxşılıq etmiş olarsınız!

E.Makron daha dərinə gedərək bəyan edib: “Fransızlar ermənilərə öz ürəklərinin qapılarını kübarca açıblar. Bu iki ölkəni sizi çox sevən Fransa xalqı birləşdirir. Bizim xoşbəxtliyimiz də, kədərimiz də birdir. Ermənilər fransızların ürəklərindədir”.

Daha sonra Fransa Prezidenti Parisin “erməni soyqırımı”nı heç zaman unutmayacağını da deyib. Aydın görünür ki, bununla rəsmi Paris həyata keçirdiyi xarici siyasətin bir sıra mühüm istiqamətlərini açıq ifadə edib. Fransa Ermənistana tam dəstək verdiyini və bütün məsələlərdə onun yanında olduğunu nümayiş etdirib. Elə isə belə bir tərəfkeş dövlət hansı haqla ATƏT-in Minsk qrupuna həmsədrlik edir? Eyni məntiqlə ermənilər və avropalılar hansı üzlə Türkiyəni tərəfkeşlikdə ittiham edirlər? Türkiyə təcavüzə məruz qalanın yanındadır, onun etnik-milli kimliyi önəmli deyil. Ankara ədalət tələb edir, ayrı-seçkiliyə qarşıdır.

Fransa isə birbaşa bəyan edir ki, təcavüzkarın yanındadır. Hətta bu işğalçı fransızların qəlbindədir, onlar fransızlarla həmyerlidirlər. Minsk qrupunun həmsədri və BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi Fransa bu cür ikili standartlarla hansı uğurları qazana bilər? Rəsmi Paris azərbaycanlıların dostudurmu, düşmənidirmi?

Bu suallar indi çox aktualdır. Həm də ona görə ki, Fransa Avropa İttifaqındakı rolu və mövqeyinə görə Azərbaycan üçün əhəmiyyətli tərəfdaşdır. Fransa Aİ-nin Almaniya və İtaliya ilə bərabər üç mühüm üzvündən biridir. Nəhayət, Azərbaycan digər həmsədr dövlətlərlə yanaşı, Fransadan da münaqişənin həllində qətiyyətli addımlar gözləyir. Bunlardan başqa, Fransa Avropanın iqtisadiyyatında çox mühüm yer tutur, xarici siyasətdə aparıcı mövqedədir. Onu da nəzərə alaq ki, Azərbaycanın ticarət dövriyyəsinin təxminən yarısı Avropa İttifaqı ölkələrinin payına düşür. Yuxarıda vurğuladığımız faktlar da göstərir ki, Fransa bu sahədə də önəmli partnyordur. Azərbaycana daxil olan xarici investisiyaların 6,7 faizi Fransanın payına düşür.

### Təmkinli, konstruktiv və səbirli Azərbaycan: hər şeyin bir həddi vardır

Artıq qeyd etdiyimiz kimi, rəsmi Bakı bütün bunları diqqətə alır və Fransa ilə əlaqələrin inkişafı üçün ardıcıl addımlar atır. Qarşılığında isə Frankofoniyadakı çıxış və bir sıra fransız deputatın, merlərin işğal olunmuş ərazilərə qanunsuz səfərləri... Müqayisə aydındır. Əslində isə Fransa Ermənistanla olan münasibətlərindən ədalət naminə istifadə edə bilər. Çünki əgər onlar tarixən yaxın əlaqələrə malikdirlərsə, onda Paris İrəvana anlada bilər ki, başqalarının torpaqlarını işğal etmək haqsızlıqdır, cinayətdir, ondan əl çəksin. Fransa tam olaraq başa sala bilərdi ki, Ermənistan rəhbərlərinin etdikləri beynəlxalq hüquq normalarına ziddir. Bu kimi işlərin axırı olmur.

Bundan başqa, Fransa Avropa İttifaqının üzvü kimi həm demokratiyanı müdafiə etməlidir, həm də Azərbaycanla imzalanan strateji tərəfdaşlıq sazişlərinin müddəalarına əməl etməlidir. Paris isə bunu bir neçə məqamda kobud şəkildə pozur. Birincisi, Fransa parlamentinin üzvləri Dağlıq Qarabağa səfərlər edirlər. Fransanın bəzi şəhərlərinin merləri eyni yanlış hərəkəti edirlər. Bununla Fransa rəsmi olaraq BMT, Aİ, AŞ PA-da qəbul edilən və altında imzası olan sənədlərdəki tələbləri pozur. Son olaraq, Aİ ilə Azərbaycanın birgə hazırladığı və Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təsdiqləyən sənədin müddəalarına zidd hərəkət edir.

İkincisi, Fransa Prezidenti beynəlxalq tədbirdə çıxış edərək özünün ermənipərəst olduğunu açıq etiraf edib. Bu isə bir tərəfdən Azərbaycanla imzalanan sazişlərin ruhuna ziddir, digər tərəfdən Fransanın ATƏT-in Minsk qrupunun həmsədri kimi tərəfsiz ola bilməyəcəyi anlamına gəlir. Elə isə Fransa özü bəyanat verib Minsk qrupunun həmsədrliyindən çəkilməlidir. Lakin rəsmi Parisin bunların heç birini etmək fikrində olmadığı aydın görünür.

Bütün bunlarla yanaşı, bir geosiyasi məqam maraqlıdır. Ermənistan Frankofoniyanı İrəvanda keçirməklə Rusiyaya yeni “əl-cək atmış” olur. Paris açıqca Ermənistanda hökmranlıq etmək niyyətini ortaya qoyur. E.Makron bunu ən azı iki istiqamətdə təsdiqlədi. Əvvəla, Fransa Prezidenti Ermənistanın ən yaxın tərəfdaşı olduğunu ifadə etdi. Bəs onda Rusiya kimdir? Axı, Ermənistan adlı dövləti Rusiya yaradıb. İndi onun ən yaxını Fransa oldu? Kremlin buna reaksiyası maraqlı olacaq.

İkincisi, E.Makron fransız dilinin Ermənistan üçün əhəmiyyətini dolayısı ilə ifadə etmiş oldu. Özü də bu, Ermənistanda rus dilinin demək olar ki, tamamilə yox edilməsi fonunda baş verir. Rusiya Ermənistanın təhsil sistemində rus dilinin inkar edilməsi ilə bağlı dəfələrlə fikrini bildirib. Ancaq real dəyişiklik yoxdur. Bunun əvəzində Ermənistan rəhbərliyi fransız dili və mədəniyyəti ilə bağlı tədbirə evsahibliyi edir. O, faktiki olaraq “rus dünyası”nı “fransız dünyası”na dəyişməyə istiqamət götürüb.

Azərbaycan isə tamamilə fərqli mövqedədir. Bakı Fransa ilə də yaxın əlaqələrini inkişaf etdirir, Rusiya ilə də bütün sahələrdə münasibətlərini çox müsbət müstəvidə inkişaf etdirməkdədir. Azərbaycanda rus dilinin inkişafı üçün heç bir maneə yoxdur. Hətta ölkənin təhsil sistemində bu dilin yeri və rolu getdikcə daha da möhkəmlənir. Rus mədəniyyəti Azərbaycanda yayılıb, yayılır və bu vəziyyətin dəyişəcəyinə dəlalət edən fakt yoxdur.

Ancaq əsas sual budur ki, Azərbaycan bu ölkələrlə səmimi və dostca münasibət qurarkən, ermənilərin isə eqoist, əsassız iddiaları ilə üz-üzə gələrkən Paris lazımi dərəcədə konstruktiv mövqe tutmur, təcavüzkara açıq və ya gizli dəstək göstərir, ona yeni-yeni silahlar verir. Görünür, Azərbaycan bu təcrübəni nəzərə alıb hansısa nəticələr çıxara bilər. Hər halda, xüsusilə Fransanın ədalətli və obyektiv mövqe tutmadığı aydındır.

Bütün bunlar beynəlxalq hüququn, demokratik dəyərlərin, insan hüquq və azadlıqlarının ayaqlar altına atılmasıdır və dövlətlərarası münasibətlərin dostluq ruhu ilə ziddiyyət təşkil edir. Azərbaycan özünün xarici siyasətini bərabərhüquqlu əməkdaşlıq, qarşılıqlı etimad, beynəlxalq hüquq normalarına hörmət, daxili işlərə qarışmamaq prinsipləri üzərində qurur. Və bütün ölkələrlə, o cümlədən Fransa ilə əməkdaşlıq və tərəfdaşlıq münasibətlərini məhz bu prinsiplər əsasında həyata keçirir.

Rəsmi Bakı kifayət qədər düşünülmüş və məntiqli siyasət yürüdür. Bu siyasət milli maraqlara uyğun olaraq beynəlxalq hüquq çərçivəsində reallaşdırılır. Ölkə rəhbərliyi daim ən düzgün mövqeni seçir. Bunu təcrübə dəfələrlə təsdiq edib. Azərbaycan heç də böyük dövlətlərlə münasibətləri pozmaq kimi kurs yeritmir, daim əməkdaşlıq və qarşılıqlı fayda üçün çalışır. Bununla yanaşı, əks tərəfin də hərdən vicdanını qarşısına qoyub düşünməsi lazım deyilmi?

Bir başqa məqam da Cənubi Qafqazın geosiyasi vəziyyəti ilə bağlıdır. Hamı etiraf edir ki, bu bölgədə kifayət qədər mürəkkəb geosiyasi dinamika mövcuddur. Ermənistanın qeyri-konstruktiv və təcavüzkar siyasət aparması, İranla Qərbin münasibətlərinin daha da gərginləşməsi və terror təhlükəsinin yaxınlaşması kimi amillər son dərəcə həssas durum meydana gətirib. Belə bir vəziyyətdə Cənubi Qafqaza xoş münasibəti olan hər bir dövlət yumşaldıcı, əməkdaşlığa təkan verən, ədalətli, obyektiv siyasət yeritməlidir. Bu məsələdə tərəfkeşlik olmamalıdır. Fransa kimi təcrübəli bir dövlətin atdığı addımlar isə tamamilə bunun tərsidir. Və bu keyfiyyətdə qətiyyən Cənubi Qafqazda sabitliyə, sülhə yardım etmir.

Səbəbi ondan ibarətdir ki, Fransa rəhbərliyi açıqca bəyan edir ki, təcavüzkarın yanındadır, onun ən yaxın dostudur. Bu şərtdə Ermənistan BMT TŞ-nin qətnamələrinə əməl edərmi? Aİ-nin qəbul etdiyi sənədlərin şərtlərini yerinə yetirərmi? Fransa özü imzaladığı sənədləri hüquqi aspektdə gözdən salır, onların adi kağız parçası olduğunu dolayısı ilə nümayiş etdirirsə, təcavüzkar, qeyri-konstruktiv düşüncəyə sahib, psixoloji olaraq xəstə olan Ermənistan rəhbərləri üçün onlar heç kağız parçası da deyil.

Məhz bu baxımdan, hesab edirik ki, Emmanuel Makronun fransızdilli ölkələrin beynəlxalq əməkdaşlıq təşkilatının 17-ci sammitindəki çıxışı siyasi karyerasının ən uğursuz məqamıdır. Orada yalnız Azərbaycana deyil, bütövlükdə dünya siyasətinə, Fransanın dövlət maraqlarına və Aİ-nin gələcəyinə zərər vura biləcək məqamlar vardır. Şübhə etmirik ki, əlahəzrət zaman, bunu təsdiq edəcək. O anda Fransa liderlərinin simasına baxmaq daha maraqlı olardı!

***Newtimes.az***

# Ölkə üzrə pambıq qəbulu məntəqələrinə 126 min tondan çox məhsul təhvil verilib

Oktyabrın 16-dək ölkə üzrə pambıq qəbulu məntəqələrinə 126 min 34 ton məhsul təhvil verilib. Ötən ilin eyni dövrü ilə müqayisədə 31 min 953 ton çox pambıq tədarük olunub.

Ən çox pambıq yığan üç rayon bunlardır: Saatlı - 17 min 221 ton, Ağcabədi - 13 min 493 ton, Bərdə - 13 min 112 ton.

Xatırladaq ki, ölkədə pambıq istehsalı üzrə ən yüksək nəticə 1981-ci ildə əldə olunmuş, 1 milyon tondan çox pambıq yığılmışdı. Sonradan bu sahəyə diqqətin zəifləməsi pambıqçılıqda tənəzzülün yaranmasına gətirib çıxardı. Hazırda qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı görülən tədbirlər çərçivəsində ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən pambıqçılığın inkişafı ön plana keçib, bu sahəyə dövlət dəstəyi artırılıb. 2015-ci ildə 18 min hektarda çiyid səpilmiş, 35 min ton məhsul yığılmışdısa, 2016-cı ildə əkin sahəsi 51 min hektara, tədarük 89 min tona çatmışdı. 2017-ci ildə isə pambıq tarlalarının sahəsi 136 min hektarı ötmüş, məhsul yığımı isə 2016-cı ilin ümumi göstəricisindən 2,3 dəfə çox olmuşdu.

Bu il 132 min 512 hektar pambıq əkilib və 260 min ton məhsul götürülməsi proqnozlaşdırılır. Ümumiyyətlə, Prezident İlham Əliyev Nazirlər Kabinetinin sonuncu iclasında pambıq istehsalının məhsuldarlığının yüksəldilməsi hesabına artırılmasının önəmini vurğulayıb və qeyd edib ki, hər hektardan orta məhsuldarlıq azı 20 sentnerə çatdırılmalıdır.

Dövlət tərəfindən pambıqçılığa göstərilən dəstək məhsul istehsalının artırılmasında mühüm rol oynayır. Belə ki, dövlət tərəfindən pambığın hər kiloqramına 10 qəpik subsidiya verilməsi, güzəştli şərtlərlə yanacaqla təminat, alış qiymətinin hər tona görə 50 manat artırılması istehsalı stimullaşdıran tədbirlərdəndir.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2017-ci il 13 iyul tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nda xam pambıq istehsalının 500 min tona çatdırılması nəzərdə tutulur.

AZƏRTAC respublikada pambıq tədarükünə dair oktyabrın 16-na olan operativ məlumatı təqdim edir.

**16.10.2018-ci il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 16 oktyabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **132512,0** | **136413,2** | **97,1%** | **126034,78** | **94081,89** | **134,0%** |
| Ağcabədi rayonu | 10000,0 | 9550,0 | 104,7% | 13493,76 | 8252,48 | 1,6 dəfə |
| Ağdam rayonu | 3100,0 | 3005,0 | 103,2% | 3419,01 | 2560,37 | 133,5% |
| Ağdaş rayonu | 3185,0 | 3000,0 | 106,2% | 2350,21 | 1628,65 | 144,3% |
| Ağsu rayonu | 2600,0 | 2500,8 | 104,0% | 1011,59 | 1239,50 | 81,6% |
| Beyləqan rayonu | 9560,0 | 8550,0 | 111,8% | 10928,37 | 7505,63 | 145,6% |
| Bərdə rayonu | 9630,0 | 8518,5 | 113,0% | 13112,30 | 7650,11 | 1,7 dəfə |
| Biləsuvar rayonu | 12000,0 | 11351,8 | 105,7% | 10166,62 | 10925,43 | 93,1% |
| Cəlilabad rayonu | 505,0 | 500,0 | 101,0% | 545,67 | 458,40 | 119,0% |
| Füzuli rayonu | 2100,0 | 2050,0 | 102,4% | 1346,13 | 898,90 | 149,8% |
| Goranboy rayonu | 5000,0 | 5000,0 | 100,0% | 5018,18 | 2161,20 | 2,3 dəfə |
| Hacıqabul rayonu | 1300,0 | 1203,9 | 108,0% | 611,70 | 316,56 | 1,9 dəfə |
| İmişli rayonu | 13645,0 | 15641,5 | 87,2% | 8751,70 | 6245,12 | 140,1% |
| Kürdəmir rayonu | 5030,0 | 4027,0 | 124,9% | 3855,66 | 2387,71 | 1,6 dəfə |
| Neftçala rayonu | 7000,0 | 11111,0 | 63,0% | 6247,01 | 4601,10 | 135,8% |
| Saatlı rayonu | 15815,0 | 17220,0 | 91,8% | 17221,48 | 15426,70 | 111,6% |
| Sabirabad rayonu | 13055,0 | 15055,0 | 86,7% | 10133,27 | 9308,80 | 108,9% |
| Salyan rayonu | 7055,0 | 7052,4 | 100,0% | 6023,87 | 4330,20 | 139,1% |
| Samux rayonu | 400,0 | 53,0 | 7,5 dəfə | 334,28 | 8,92 | 37,5 dəfə |
| Tərtər rayonu | 3300,0 | 3123,0 | 105,7% | 4287,87 | 3624,92 | 118,3% |
| Ucar rayonu | 2500,0 | 2500,0 | 100,0% | 963,84 | 999,66 | 96,4% |
| Yevlax şəhəri | 2500,0 | 2168,0 | 115,3% | 3432,98 | 1162,53 | 3 dəfə |
| Zərdab rayonu | 3232,0 | 3232,3 | 100,0% | 2779,28 | 2389,00 | 116,3% |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

# Bu il Azərbaycanda 29 milyon ton neft və 14 milyard kubmetrədək əmtəəlik qaz çıxarılıb



Cari ilin yanvar-sentyabr aylarında Azərbaycanda 28 milyon 994,7 min ton xam neft (qaz kondensatı daxil olmaqla) və 22 milyard 246,7 milyon kubmetr təbii qaz hasil olunub. Həmin həcmdən 13 milyard 833,8 milyon kubmetr əmtəəlik təbii qaz alınıb.

9 ayda mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 26 milyard manat olmaqla əvvəlki ilin yanvar-sentyabr aylarına nisbətən 0,2 faiz artıb.

Ölkədə neft istehsalı 0,7 faiz, qaz hasilatı isə 2,4 faiz çoxalıb.

# Üç rübdə Bakı-Tbilisi-Ceyhan kəməri ilə 25,1 milyon ton neft göndərilib



Bu ilin 9 ayında Azərbaycandakı magistral neft kəmərləri ilə 30 milyon 881,7 min ton neft nəql olunub. Nəqletmənin 81,5 faizi Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri (BTC) ilə həyata keçirilib. Yanvar-sentyabr ayları ərzində bu kəmər vasitəsilə 25 milyon 153,8 min ton neft ötürülüb. Doqquz ayda BTC ilə 4 milyon 785,8 min ton tranzit nefti də nəql edilib.

# 126,4 min ton metanol istehsal olunub

Cari ilin 9 ayında Azərbaycanda 46,9 min ton propilen (ondan 40,3 min ton əmtəəlik), 83,2 min ton polietilen, 85,6 min ton etilen, 7 milyon 284,9 min ton izopropil spirti və 126,4 min ton metanol (metil spirti) istehsal edilib.

Bu il oktyabrın 1-nə 4,1 min ton propilen, 1,6 min ton polietilen, 1 milyon 715,8 min ton izopropil spirti və 5,5 min ton metanol hazır məhsul ehtiyatı kimi qalıb.

Üç rübdə əsas kimya məhsullarından izopropil spirti istehsalı 22,1 faiz və metanol istehsalı 42,9 faiz azalıb. Propilen istehsalı 38 faiz, etilen istehsalı isə 28,3 faiz artıb.



# Cari ildə Bakı-Tbilisi-Ərzurum kəməri ilə 5,8 milyard kubmetrədək təbii qaz ötürülüb

Bu ilin yanvar-sentyabr aylarında Azərbaycandakı magistral qaz kəmərləri ilə 16 milyard 806,1 milyon kubmetr təbii qaz nəql edilib və əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,7 faiz artım müşahidə olunub.

3 rübdə qaz nəqlinin 34,4 faizi Bakı-Tbilisi-Ərzurum (Cənubi Qafqaz Boru Kəməri - CQBK) boru kəməri vasitəsilə həyata keçirilib. Hesabat dövründə bu kəmərlə 5 milyard 785,6 milyon kubmetr təbii qaz göndərilib.

# Sahibkarlarla peşə təhsili müəssisələri arasında əməkdaşlıq güclənir

**Oktyabrın 16-da Bakıda Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) təşkilatçılığı ilə "Sahibkar - peşə təhsili əməkdaşlığı" adlı konfrans keçirilib.**



Konfrans Almaniyanın Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi (BMZ) və Almaniya İqtisadi İnkişaf Fondu (SEQUA GmbH) tərəfindən maliyyələşdirilən layihə çərçivəsində həyata keçirilib. Layihənin əsas məqsədi Azərbaycan Respublikasında gənclər arasında məşğulluğun artırılması üçün sahibkarlarla peşə təhsil müəssisələri arasında əməkdaşlığı gücləndirmək və əmək bazarının ehtiyaclarına uyğun kadrların hazırlanmasına dəstək olmaqdır.

Tədbirdə çıxış edən Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev son illər ölkə iqtisadiyyatına yatırılan sərmayələr haqqında danışaraq qeyd etdi ki, Azərbaycan Cənubi Qafqazda ən inkişaf etmiş ölkədir, ümumi daxili məhsulun 70 faizi məhz Azərbaycanda istehsal olunur. Son 15 ildə Azərbaycan iqtisadiyyatına 250 milyard dollar sərmayə yatırılıb. Yatırılan bu sərmayənin yarısı xarici investisiyaların payına düşür. İnvestisiyalar yeni texnologiyaların cəlb edilməsi deməkdir. Bu isə öz növbəsində təhsilə, həmçinin peşəyə yeni tələblər yaradır. Biz bu sahədə Təhsil Nazirliyi, ayrı-ayrı universitetlər və təhsil müəssisələri ilə sıx əməkdaşlıq edirik. İmzalanmış sazişlər çərçivəsində müsbət nəticələr verən bir çox işlər görülmüşdür.

M.Musayev çıxışında bildirdi ki, "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji yol Xəritəsi"nin tələblərinə uyğun olaraq "Pilot peşə təhsili müəssisələrində işəgötürənlərlə tərəfdaşlıq mexanizminin qurulması, peşə standartları və kurrikulumların işlənilməsi" çərçivəsində yaradılması nəzərdə tutulan mexanizmlərin təkmilləşdirilməsi üçün işəgötürənlərin əsas maraqlarının öyrənilməsi, onlardan müvafiq rəy və təkliflərin alınması ilə bağlı işlər davam edir. Sözügedən tərəfdaşlıq mexanizmlərinin qurulmasında işəgötürənlərin ümumi maraqları əsasında, nəzərdə tutulmuş tərəfdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi üçün Azərbaycan Sahibkarlar Konfederasiyası tərəfindən bir sıra təkliflər irəli sürülmüşdür.

Tədris prosesində əsas iştirakçı rollardan birinin peşə təhsil müəssisəsi olduğundan "şagirdlik müqavilə"lərinin 3 tərəf - peşə təhsil müəssisəsi, şagird və işəgötürən arasında bağlanmasını məqsədəuyğun hesab etmişik. Həmin müqavilənin tərkibinə hər üç tərəfin hüquq və vəzifələri, tədris və iş saatlarına dair müddəalar, müqavilənin xitamı halları və mübahisələrin həlli qaydası kimi maddələrin daxil edilməsi nəzərdə tutulub.

Almaniyanın Azərbaycandakı səfirinin müavini xanım Andrea Sühl isə bildirib ki, təmsil etdiyi ölkə Azərbaycanda peşə təhsilinin inkişafında maraqlıdır. O, həmçinin Almaniya sahibkarlarını bu sahəyə maraq göstərməyə çağırıb.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov müasir dövrdə ilk peşə ixtisas təhsili müəssisələrinin işəgötürənlərlə əməkdaşlığının gücləndirilməsinə çox böyük zərurətin olduğunu qeyd etdi.

F.Qurbanov çıxışında bildirdi ki, "Bütün peşə təhsili müəssisələrini eyni səviyyəli müasir avadanlıqlarla təchiz etmək çətindir. Belə olduğu təqdirdə işəgötürənləri bu prosesə cəlb etməklə xərclərin azaldılmasına nail olmaq mümkündür. Dünya ölkələrinin təcrübəsi göstərir ki, kadr hazırlığı prosesi istehsalatdan təcrid edilmiş formada həyata keçirilə bilməz. Təhsil müəssisəsi sifarişçinin, yəni işəgötürənin tələb və ehtiyacını öyrənmirsə, onda təhsil müəssisəsində hazırlanan kadrların rəqabətqabiliyyətliliyinin səviyyəsi aşağı olur. Azərbaycanda ilk dəfə olaraq qəbul edilən "Peşə təhsili haqqında" qanunda işəgötürənlərin stimullaşdırılması ilə bağlı maliyyə, hüquqi və digər sahələr üzrə güzəştlərin verilməsi nəzərdə tutulur. Bu da özəl sektorun peşə təhsili ilə tərəfdaşlığına daha çox maraq göstərməsinə imkan yaradacaq. Bundan əlavə, peşə təhsili müəssisələri ilə işəgötürənlər arasında sıx əməkdaşlıq münasibətlərinin qurulması baxımından əsas istiqamətlərdən biri kimi işəgötürənlərin peşə təhsili və tədrisi sisteminə inteqrasiyası, onların yüksəkixtisaslı kadrların tədris prosesinə cəlb edilməsi müəyyən edilib".

Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin şöbə müdiri Zamin Bədirxanov bildirib ki, Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsində birinci hədəf işəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyasına nail olmaqdır.

Layihədə ekspert qismində iştirak edən Famil Baxışov və Sədaqət Qəmbərova Bakı şəhəri və Xaçmaz rayonu ərazilərində layihə çərçivəsində görülən işlər haqqında iştirakçılara məlumat veriblər. Qeyd olunub ki, 2015-2018-ci illəri əhatə edən birinci mərhələdə layihə dörd istiqamət üzrə həyata keçirilir:

Birinci istiqamət müəssisələrin işçi qüvvəsinə olan ehtiyacını, peşə təhsilinə və kvalifikasiyalara olan tələblərini müəyyənləşdirmək, şagirdlərin istehsalat təcrübəsinə dəstək vermək, peşə məktəbləri ilə əməkdaşlıq perspektivlərini araşdırmaq üçün onlayn monitorinq sisteminin yaradılmasıdır.

"Müəssisə - öyrənmək yeridir" adlı ikinci istiqamətdə həyata keçirilən fəaliyyət çərçivəsində Xaçmaz peşə liseyi və peşə məktəbi şagirdləri üçün Yalama Aqropark, "Azərxalça", "Vahid çörək" və kənd təsərrüfatı müəssisələrində "açıq qapı" günləri keçirilmişdir.

"Məktəb - öyrənmək yeridir" adlı üçüncü istiqamətin əsas məqsədi peşə məktəbi şagirdlərinin sahibkarlıq düşüncəsinin inkişaf etdirilməsidir. Bu mərhələdə peşə məktəblərinin şagirdləri ilə görüşlər keçirilib və onların arasında "Mən gələcəyin sahibkarıyam" mövzusunda rəsm/kompüter qrafikası müsabiqəsi təşkil olunmuşdur. Müsabiqədə 15 şagird iştirak etmiş və dörd qalib yer müəyyən edilərək şagirdlər mükafatlandırılmışlar. Layihə çərçivəsində ekspertlər qrupu tərəfindən həmçinin sahibkarlığa başlamaq istəyən gənclər üçün "Öz biznesinə başla" adlı iki təlimat kitabçası hazırlanmışdır. Kitabçaların dizaynında peşə məktəbləri şagirdlərinin müsabiqəyə təqdim etdiyi şəkillərdən istifadə edilmişdir. Bundan başqa gənclərdə sahibkarlıq düşüncəsinin inkişaf etdirilməsi məqsədilə Xaçmaz peşə liseyi və peşə məktəbinin şagirdləri üçün motivasiya xarakterli "Öz biznesinə başla" mövzusunda təlimlər keçirilmişdir. Şagirdlərə kiçik biznesin qurulması üçün biznes planların hazırlanması mərhələləri üzrə konkret bilik və məlumatlar verilmişdir. Layihənin işçi planına uyğun olaraq, əsas diqqət Kənd Turizmi İnformasiya və Xidmət Bürosunun yaradılması ideyasına verilmişdir.

Dördüncü istiqamət peşə təhsilinin təşviqat kampaniyası üzrə həyata keçirilən fəaliyyəti özündə əks etdirir.

Konfransın sonunda Azərbaycan Sahibkarlar Konfederasiyası ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin arasında əməkdaşlığın daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparılmışdır.

*"Azərbaycan"*

# "AzerGold" QSC AXC-nin 100 illiyi münasibətilə elan olunan təqaüd proqramının qaliblərini müəyyən edib

"AzerGold" QSC Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə elan olunan təqaüd proqramının qaliblərini müəyyən edib.




Tarixçi alimlər Firdovsiyyə Əhmədova və Anar Vəliyev, həmçinin "AzerGold" QSC nəzdində fəaliyyət göstərən Korporativ Sosial Məsuliyyət Komitəsinin sədri Sadiqə Mehdiyevadan ibarət münsiflər heyəti müsabiqə iştirakçılarını AXC tarixi üzrə az araşdırılmış mövzu, akademik tələblərə uyğun tərtib edilmiş iş planı və ədəbiyyat siyahısı kimi meyarlar əsasında qiymətləndirib.

Qiymətləndirmə nəticəsində irəli sürülən müraciətlər içərisində AXC-də pul və qiymətli kağızlar siyasəti, AXC dövründə sənaye, aqrar məsələlərə dair bolşevik mətbuatında əks təbliğat və Azərbaycan parlamentarizminin xüsusiyyətləri kimi mövzular səs çoxluğu ilə qalib seçilmişlər.

"AzerGold" QSC-nin rəhbər şəxsləri ilə qaliblər arasında cəmiyyətin inzibati binasında görüş keçirilib. Görüş çərçivəsində "AzerGold" QSC-nin İdarə Heyətinin üzvü, sədrin müavini Oqtay Məmmədov təqaüd proqramının AXC-nin tarixinin daha dərindən araşdırılmasına və tarixi tədqiqatların təşviqinə önəmli töhfə verəcəyini bildirib. Qaliblər müsabiqənin keçirilməsinin əhəmiyyətini yüksək qiymətləndirərək, "AzerGold" QSC-yə tarixi araşdırmaların aparılması üçün yaradılan şəraitə görə minnətdarlıqlarını bildiriblər. Daha sonra təqaüd proqramının qalibləri ilə müvafiq müqavilələr imzalanıb. Müqavilənin şərtlərinə əsasən, tədqiqatçılar araşdırmalarını müəyyən edilmiş müddət ərzində tamamlayaraq "AzerGold" QSC-yə təqdim edəcəklər. Bu tədqiqatların müxtəlif mətbuat orqanlarında dərc edilməsinə dəstəyin göstərilməsi də nəzərdə tutulub.

Qeyd edək ki, bu ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100 illiyi münasibətilə elan olunan təqaüd proqramı respublikaçılıq ənənələrinin araşdırılmasına və təbliğinə dəstəklə yanaşı, milli tarix üzrə ixtisaslaşmış gənc tədqiqatçıların formalaşmasına və peşəkar inkişafına töhfə vermək məqsədlərini daşıyır.

*"Azərbaycan"*

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 16-da Azərbaycan və Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçiriblər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Oqnyen Yoviç aparıblar.


# "Azərişıq"ASC 2018-ci ildə tələb olunan müxtəlif mətbəə məhsullarının satın alınması məqsədilə açıq tender elan edir

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1 Müxtəlif mətbəə məhsullarının satın alınması - 400 manat

"Azərişıq" ASC
Hesab №: AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab №: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (23-32))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 20 noyabr 2018-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 29 noyabr 2018-ci il saat 16:00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 30 noyabr 2018-ci il tarixdə saat 16:00-da Ələsgər Qayıbov küç. 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

# Duyğuların tərcümanı

## Musiqi insanları bir-birinə yaxınlaşdırır

Musiqinin bir dili var. Munisi oldunsa, sehrinə düşdünsə, könül qapını şəstlə açıb dünyana gələcək, duyğularınla həmsöhbət olacaq. Onun qarşısında keçilməz sədd, aşılmaz sərhəd yoxdur.
Bəşər övladları musiqisiz həyatın yeknəsəq, cansıxıcı olduğunu ilk vaxtlardan duydular. Ona görə hislərini sözdən qabaq xüsusi ahənglərlə, ritmlərlə ifadə etdilər. Bu həqiqət sivilizasiyanın ilk nümunələrində - daş abidələrdə, qayaüstü rəsmlərdə əksini tapdı. Afrika mağaralarında qayaüstü rəsmlərdə əlində musiqi aləti tutmuş insanların təsvirləri, Çin arxeoloqlarının aşkara çıxardıqları 2 min illik tarixə malik musiqi alətləri muzeyi bu mənada olduqca diqqətçəkəndir. Sivilizasiyanın ən qədim mərkəzlərindən olan Azərbaycanda da insanlar musiqinin tarixini daşlara həkk etdilər. Qobustandakı qavaldaş daş dövründə yaşamış insanların istifadə etdikləri musiqi alətidir. Qobustan qayalarında qədim Azərbaycanın "Yallı" rəqs səhnələri təsvir olundu.



### Musiqi nələrə qadirdir

Əslində, bu sualı belə qoymaq daha doğru olar: "Musiqi nələrə qadir deyil?" Onda bütün hislərin, duyğuların ifadəsini tapmaq mümkündür. Kədərinə yoldaş, sevincinə şərik ola bilir. Bəzən müəllifləri belə unudulmuş, bəzənsə kimin bəstəsi olduğunun heç fərqinə varmadan dinlədiyimiz musiqilər ürəyimizə o qədər yatır, ruhumuza elə xoş gəlir, düşünürük ki, sanki bizim üçün yazılıb... Bu hislər hər gələn nəsillə birlikdə yenilənəcək. Heç zaman qocalmayan, zamansız musiqi İlahinin bəşər övladına bəxş etdiyi misilsiz gözəllik, böyük nemətdir.

Musiqi güclüdür, qüdrətlidir. Ruhuna sığal çəkirsə, qəlbini oxşayırsa, ovsunlayacaq. Eyni ilə əsrarəngiz Azərbaycan muğamlarının, xalq mahnılarının Yer kürəsinin müxtəlif guşələrində yaşayan, dili, dini ayrı çox insanı cazibəsinə saldığı kimi... Yəqin ona görə ki, onların hər biri öz daxili dünyasında muğamlarımızda əks olunan sevginin sonsuzluğunu, hicran yanğısını görə, duya bilir.

### Azərbaycan musiqisində Üzeyir Hacıbəyli ənənəsi

Doğma musuqi həm də kökə bağlılıqdır. Nə qədər dünya musiqisindən görüb-götürsələr də, çağdaşlaşsalar da, millilik unudulmamalıdır. Azərbaycan musiqi sənətinin ən böyük uğuru da bu oldu. Təkcə doğma xalqının musiqisini deyil, rus və dünya klassik musiqisini də dərindən bilən, mənalı ömrünün qırx beş ilə qədərini Azərbaycan mədəniyyətinin, musiqisinin inkişafına, dünyada tanıdılmasına, təbliğinə həsr edərək misilsiz işlər görən Üzeyir Hacıbəyli böyük bir məktəbin bünövrəsini qoydu. Pərəstişkarı olduğumuz Üzeyir bəy və onun sənət yolunu davam etdirən istedadlı bəstəkarlarımız xalqın musiqi xəzinəsindən bəhrələnərək, dünya musiqisini öyrənərək yeni əsərlər yazdılar. Bu ənənə indi də davam etdirilir.

Dünya musiqisinin incilərini dönə-dönə dinləməkdən zövq aldığımız kimi, müxtəlif ölkələrdə yaranan yeni üslub və janrların da təsirinə düşməmək mümkünsüzdür. Vətəni İtaliya olan klassik opera da sonralar bütün Avropada məşhurlaşdı. Ötən əsrin əvvəllərində pedaqoq, jurnalist, redaktor kimi tanınan Üzeyir Hacıbəyli daha bir yenilik etdi. O, "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, Yaxın Şərqdə ilk opera yazan bəstəkar kimi tarixə düşdü. Üzeyir bəyin yeni əsəri sevinclə qarşılandı. 1908-ci il yanvarın 12-də Bakıda Hacı Zeynalabdin Tağıyevin teatrında təqdim edilən "Leyli və Məcnun" operasının premyerası böyük səs-səda yaratdı. Tamaşa haqqında dövrün əksər mətbuat orqanlarında xəbərlər, tərif dolu məqalələr dərc olundu.

XX əsrin ikinci onilliyi Azərbaycan musiqi sənətində başqa bir yeniliklə yaddaqalan oldu. 1911-ci ildə Şövkət Məmmədova vokal dərsi almaq üçün İtaliyaya yollandı. Milan Konservatoriyasına qəbul edisə də, yeniyetmə qızın təhsilinə maneələr yaradanlar tapıldı. Ancaq o, məqsədindən dönmədi və bir qədər gec də olsa, arzusuna yetdi.

Böyük ərazilərə sahiblənən, on beş respublikanı hökmü altında saxlayan sovet hökuməti sosializmin tam qələbəsini təmin etmək üçün qapılarını kapitalist ölkələrinin üzünə möhkəm bağlasa da, bir sıra sahələrdə müəyyən güzəştlərə getməli oldu. Bunlardan biri də musiqi sənəti idi. 1920-ci illərin sonunda, sovet hakimiyyəti quruculuğunun ilk illərində Bülbül və Şövkət Məmmədova staj keçmək üçün birlikdə İtaliyanın "La Skala" Opera Teatrına göndərildilər.

Azərbaycanın bu istedadlı vokalçıları klassik vokal-opera məktəbi ilə məşhur olan İtaliyada qabaqcıl pedaqoqlardan dərs aldılar. Onlardan sonra sovet hökuməti uzun illər Azərbaycandan İtaliyaya musiqi təhsili almağa kimsəni göndərmədi. Təqdirəlayiqdir ki, SSRİ xalq artistləri Şövkət Məmmədova və Bülbül Azərbaycan Dövlət Konservatoriyasında pedaqoji fəaliyyət göstərərək vokal dərsi keçdilər.

Respublikamızdan İtaliyaya, "La Skala" teatrında staj keçməyə 1964-cü ildə gənc vokalçı Müslüm Maqomayev gedə bildi. Ondan sonra da doqquz illik fasilə yarandı. Nəhayət, 1975-ci ildə Azərbaycan Opera və Balet Teatrının solisti, tanınmış opera müğənnisi Lütfiyar İmanov "La Skala" teatrında staj keçdi.

### Musiqi sənətimizi yaşadanlar

Sovet hökuməti xarici ölkələrdə nəinki təhsil almaq, həm də qastrol səfərlərinə çıxmaq imkanlarını məhdudlaşdırmışdı. Daha doğrusu, yalnız dövlətin razılığı və göndərişi ilə Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) hüdudlarını keçmək mümkün idi. Əvəzində Azərbaycandan asanlıqla Sovet İttifaqının paytaxt şəhərinə - Moskvaya və Leninqrada (indi Sankt-Peterburq) gedib konservatoriya təhsili almaq olardı. Bir də o illərdə artıq Üzeyir Hacıbəylinin böyük zəhmətlə qurduğu, SSRİ-dən ən yaxşı pedaqoqları dəvət etdiyi Azərbaycan Dövlət Konservatoriyası fəaliyyət göstərirdi. Üzeyir bəydən dərs almış, onun qayğısını, xeyirxahlığını görmüş böyük Azərbaycan bəstəkarları - Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Cahangir Cahangirov və başqaları musiqi xəzinəmizi öz bənzərsiz əsərləri ilə zənginləşdirirdilər. Onların ölməz əsərlərini tanıdan, məşhurlaşdıran bir də maestro Niyazinin misilsiz dirijorluq məharəti idi.

Qeyd etdiyimiz kimi, Sovet İttifaqından xarici ölkələrə qastrol səfərlərinə göndərilən musiqiçilər, müğənnilər xüsusi diqqətlə seçilirdi. Müttəfiq respublikalardan, o cümlədən sovet Azərbaycanından Moskvanın icazə verdiyi sənətçilər dünya səhnələrində çıxış edə bilirdilər. O illərdə Müslüm Maqomayev, Zeynəb Xanlarova, İslam Rzayev, Rəşid Behbudov, kaman ustası Habil Əliyev və başqa sənətkarlar yalnız Sovet İttifaqının ərazilərində deyil, xarici ölkələrdə də məşhurlaşmışdılar.

1990-cı illərdə Azərbaycan yenidən müstəqilliyinə qovuşdu. İlk illərdə ölkəmiz böhranla üzləşdi. Siyasi, iqtisadi, sosial, mədəni sahələri əhatə edən çətinlikləri həll etmək asan olmadı. Həmin vaxtlar musiqi sənəti də ağır problemlərlə qarşılaşdı. Bəzi sənət adamları Azərbaycanı tərk etdi. Ancaq ölkəmiz bu sınaqların da öhdəsindən gələ bildi.

İndi azad Azərbaycanın musiqi sənətini təbliğ etmək yolunda heç bir maneə yoxdur. Dünyanın istənilən ölkəsində musiqi təhsili almaq və bəstəkarlarımızın əsərlərini tanıtmaq üçün imkanlar var. Azərbaycan dünya musiqisinin inkişafına da öz töhfələrini verir. Neçə-neçə istedadlı gənc bəstəkarımız xalqımızın və ümumilikdə dünya musiqi xəzinəsinin nailiyyətlərini dərindən öyrənir, bu sənətdə öz dəst-xətlərini, üslublarını yaratmağa çalışırlar.

Təqdirəlayiqdir ki, Azərbaycan musiqisi bu gün beynəlxalq aləmdə təbliğ olunur. Musiqi kollektivlərimiz beynəlxalq müsabiqələrdə çıxış edərək xalqımızın bənzərsiz musiqisini nümayiş etdirir. Heydər Əliyev Fondunun təşkilatçılığı, Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti nəticəsində Azərbaycan musiqisinin tarixi ənənələri UNESCO tərəfindən qorunmaqdadır.

Azərbaycanın zəngin musiqi mədəniyyətinin təbliği istiqamətində həyata keçirilən tədbirlərdən biri də Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə 18-26 sentyabr tarixində təşkil edilən Üzeyir Hacıbəyli X Beynəlxalq Musiqi Festivalı oldu. 2009-cu ildən başlayaraq ölkəmizdə hər il keçirilən və dahi bəstəkar, Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyliyə həsr olunmuş beynəlxalq musiqi festivalı böyük əks-səda yaradıb. Festival konsertlərində müxtəlif ölkələrin tanınmış musiqiçiləri, bədii kollektivləri, solistləri və dirijorları iştirak ediblər.

Bu il onuncu dəfə təşkil olunan beynəlxalq festivalda Rusiya, ABŞ, Türkiyə, İtaliya və Slovakiyadan tanınmış musiqiçilər və kollektivlər - T.Dokşitser adına "New life brass" kvinteti, "Dədə Qorqud" kamera orkestri, Murad Kajlayev, Murad Annamamedov, Sergey Roldugin, Pavel Milyukov, Azər Dəmirov, Fərhad Aşumov və başqalarının iştirakı ilə 30-a yaxın tədbir keçirildi.

Belə tədbirlərin keçirilməsi Azərbaycanın zəngin musiqisinin təbliğində və istedadlı musiqiçilərinin tanınmasında böyük rol oynamaqla yanaşı, onların inkişafında misilsiz xidmətlər göstərir.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

## Topoqrafiya hərbi hissəsinin döyüş hazırlığı yoxlanılıb



Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, naviqasiya və kartoqrafiya təyinatlı "N" hərbi hissəsinin döyüş hazırlığının yoxlanılması məqsədilə təlim keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin keçirilməsində əsas məqsəd hərbi qulluqçuların döyüşə hazırolma səviyyəsini yüksəltmək, qərar qəbuletmə təcrübəsini təkmilləşdirmək, həmçinin şəxsi heyətin topo-geodeziya xarakterli tapşırıqları operativ icra etmə bacarığını yüksəltməkdən ibarətdir.

## Sərhəd pozucuları saxlanılıb

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən etibarlı sərhəd mühafizəsinin təmin edilməsi sahəsində tədbirlər davam etdirilir.



DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində külli miqdarda narkotik vasitənin qanunsuz dövriyyədən çıxarılmasına nail olunmuşdur.

Keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində Yardımlı rayon Arvana kəndi ərazisindəki sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozan 2 nəfər naməlum şəxsin hərəkəti sərhəd naryadı tərəfindən müşahidə olunmuşdur.

Hərbi qulluqçular tərəfindən sərhəd pozucuları saxlanılaraq sərhəd zastavasına gətirilmiş, onların üzərinə baxış keçirilərkən 1 ədəd qara rəngli əl çantasının içərisində 6 ədəd polietilen bağlamada 5 kq tiryək aşkar edilmişdir.

Saxlanılmış sərhəd pozucularının şəxsiyyəti müəyyənləşdirilmiş, onların İran İslam Respublikası vətəndaşları - 1990-cı il təvəllüdlü Pənahi İbrahim Əli və 1993-cü il təvəllüdlü Nəravi Mehdi Əhməd olmaları məlum olmuşdur.

Fakt üzrə zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***"Azərbaycan"***

## Bu gün havanın əsasən yağmursuz olacağı proqnozlaşdırılır

Azərbaycanda oktyabrın 17-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Cənub küləyi əsəcək. Havanın temperaturu gecə 12-15°, gündüz 18-22° isti olacaq.

Sinoptiklərin tibbi meteoroloji proqnozuna görə, oktyabrın 17-də Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 23-28° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Havanın temperaturunun gecə 3-8°, gündüz 9-14° isti olacağı ehtimalı var.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, gündüz havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Havanın temperaturunun gecə 9-14°, gündüz 19-24° isti olacağı proqnozlaşdırılır.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, gündüz yağıntının tədricən kəsiləcəyi gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Havanın temperaturunun gecə 7-12°, gündüz 16-21° isti, dağlarda gecə 2-7°, gündüz 7-12° isti olacağı proqnozlaşdırılır.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, gündüz havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Havanın temperaturunun gecə 10-15°, gündüz 20-25° isti olacağı ehtimal edilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində arabir yağış yağacağı proqnozlaşdırılır. Yağıntının gecə və axşam ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Səhər dağlarda duman olacaq. Havanın temperaturunun gecə 13-16°, gündüz 18-23° isti, dağlarda gecə 5-9° isti, gündüz 10-15° isti olacağı bildirilir.

Respublikanın bölgələrində şərq küləyi əsəcək.



# Beynəlxalq aləm

## HADİSƏLƏR, FAKTLAR

### Trampın ticarət müharibəsi üzündən dünya 1,5 trilyon dollar itirəcək



ABŞ Prezidenti Donald Trampın başladığı ticarət müharibəsi ucbatından dünya 1,5 trilyon dollar itirəcək. Yaxın perspektivdə Çin, uzunmüddətli perspektivdə isə ABŞ-ın özü cavab rüsumları səbəbindən ən çox ziyan çəkən ölkələr olacaq.

Bu qənaətə ekspertlər Beynəlxalq Valyuta Fondunun illik iclasında gəlmişlər. Onlar hesab edirlər ki, dünya bazarı dərhal 17 faiz azalacaq və bu, böhranlı 2008-ci il hadisələrinə bənzər sarsıntı olacaq.

Bundan əlavə, artıq gələn il məhz Amerikanın proteksionizmi üzündən dünya ticarətinin artımının azalması hiss olunacaq. Böyük Britaniyanın Avropa İttifaqından çıxması da vəziyyətə qeyri-müəyyənlik əlavə edəcək.

### Nigeriyada neft kəməri partladı: 60 nəfər öldü

Nigeriyanın "Nigerian National Petroleum Corporation" dövlət şirkətinin neft kəmərində partlayış və yanğın baş vermişdir. Nəticədə 60 nəfər həlak olmuşdur. Bu barədə "Sinxua" agentliyi xəbər verir.

Məlumata görə, hadisə ötən cümə günü Abiya ştatının Aba şəhərinin yaxınlığında baş vermişdir. Partlayışlar iki kənddə qeydə alınmışdır. Fövqəladə halların idarə edilməsi üzrə milli mərkəzdən bildirmişlər ki, partlayışın 60 qurbanı diri-diri yanmışdır. Yerli sakinlər neft kəmərində sızmadan istifadə edərək yanacaq oğurlamaq istəmişlər. Həmin vaxt yanğın baş vermişdir.

Agentliyin əlaqələndiricisi Evans Uqo bildirmişdir ki, faciənin səbəbi neft kəmərinə lazımi səviyyədə texniki xidmət göstərilməməsi ola bilər. O həmçinin şirkəti mühafizəni gücləndirməyə və sistemləri müntəzəm olaraq yoxlamağa çağırmışdır.

### Əfqanıstanda 30-dan çox polis əməkdaşı həlak oldu

Əfqanıstanın şimalında "Taliban" radikal hərəkatı döyüşçülərinin hücumu nəticəsində azı 30 polis əməkdaşı həlak olmuşdur. Bu barədə "Pajvak" agentliyi xəbər verir.

Məlumata görə, taliblər dünən səhər Samanqan əyalətindəki nəzarət-keçid məntəqələrinə hücum etmişlər. Nəticədə 30-dan çox polis əməkdaşı, o cümlədən rəis müavini, polkovnik Xvani Tahiri öldürülmüşdür.

Polis idarəsinin nümayəndəsi Munir Rahimi toqquşma faktını təsdiqləmişdir. O bildirmişdir ki, bir müddət sonra təfərrüatlar açıqlanacaq.

Həmçinin qeyd olunur ki, taliblər polislərin 8 maşınını, 2 tankını, silahlarını və amunisiyalarını ələ keçirmişlər.

Onlarca polis əməkdaşının öldürülməsi faktını "Taliban" hərəkatının nümayəndəsi Zəbihulla Mücahid də təsdiq etmişdir.

### İranın 14 vətəndaşı Pakistanla sərhəddə oğurlandı

Pakistanla həmsərhəd Sistan və Belucistan əyalətində İran təhlükəsizlik qüvvələrinin 14 əməkdaşı oğurlanmışdır. Bu barədə İranın dövlət televiziyası xəbər verir.

Məlumata görə, hadisə Mircav şəhərində baş vermişdir. Orada "Bəsic" könüllülər dəstəsinin 7 döyüşçüsü, 5 sərhədçi və İslam İnqilabı Qvardiyasının 2 əsgəri oğurlanmışdır. Buna görə məsuliyyəti Sistan və Belucistanda fəaliyyət göstərən "Ceyşül-Ədl" təşkilatı öz üzərinə götürmüşdür.

İranın terrorçu təşkilat kimi tanıdığı "Ceyşül-Ədl" hökumətə qarşı silahlı mübarizə aparır. Təşkilat belucların hüquqlarını qoruduğunu iddia edir.



Xatırladaq ki, ötən ilin aprelində "Ceyşül-Ədl" bir iranlı hərbçini oğurlamışdı. Sonradan əsgər azadlığa buraxılmışdır.

### Fransada 13 nəfəri sel apardı



Fransanın cənubunda yerləşən Od departamentində daşqınlar nəticəsində azı 13 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır. Bir nəfərin itkin düşdüyü bildirilir. Ölənlərin sayı arta bilər. Bu barədə "Frans Press" agentliyi xəbər verir.

Departamentdə leysan yağışları srağagün başlamışdır. Çaylar və arxlar məcrasından çıxmış, bəzi yerlərdə suyun səviyyəsi normanı xeyli ötmüşdür. Departamentin şərqində yerləşən Treb rayonunda suyun səviyyəsi 7 metrdən çox qalxmışdır. Şəhərlərin küçələri çaylara çevrilmişdir. Bir çox avtomobilləri su aparmışdır.

Yerli hakimiyyət orqanlarının verdiyi məlumata görə, 4 rayonun əhalisi təxliyə edilmişdir. 3300-dən çox ev işıqsız qalmışdır.

### ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Zeynal Vəfaya əzizi

**SƏLTƏNƏT SƏFƏRLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir .

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi "Qarabağ qaziləri" İctimai Birliyinin sədri, nazirlik yanında ictimai şuranın üzvü

**ETİMAD ƏSƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Ombudsman Elmira Süleymanova və aparatın əməkdaşları iş yoldaşları Həmid Nəsirova atası

**RAUF NƏSİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər .

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8408
Sifariş 3047